RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 55 (8934) BAZAR, 13 mart 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyevin qlobal layihələri Avrasiyanın enerji və nəqliyyat xəritəsini dəyişdirir



## İranla imzalanan anlaşma memorandumu ölkəmizin geostrateji müstəvidə növbəti diplomatik qələbəsidir

Cənubi Qafqazın aparıcı ölkəsi kimi Azərbaycan öz geosiyasi mövqeyindən maksimum yararlanaraq regionlararası nəqliyyat-kommunikasiya əlaqələrinin yaradılmasında fəal iştirak edir.

Ölkəmizin zəruri infrastrukturun təşkilində oynadığı mühüm rol digər potensial marşrut dəhlizlərinin də formalaşdırılmasına təkan verir. Asiya və Avropa arasında körpü rolunu oynayan Azərbaycan bir sıra regional nəqliyyat layihələrinin təşəbbüskarı və icraçısıdır. Ölkəmiz “Şərq-Qərb” və “Şimal-Cənub” nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olaraq hazırda digər mühüm layihələr - “Cənub-Qərb” və “Şimal-Qərb” layihələri üzərində iş aparır. Bununla da Azərbaycan etibarlı tranzit ölkəsi kimi çoxtərəfli beynəlxalq əməkdaşlığa dəyərli töhfə verir.

Martın 11-də bu sahədə daha bir tarixi hadisə yaşandı. Azərbaycanla İran İslam Respublikası arasında qonşu ölkənin ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu imzalandı. Bunu ilk növbədə Azərbaycanın geostrateji müstəvidə yeni qələbəsi, tarixi əhəmiyyətə malik hadisə kimi qiymətləndirmək olar.

### Azərbaycan etibarlı tranzit ölkəsi kimi çoxtərəfli beynəlxalq əməkdaşlığa dəyərli töhfə verir

Azərbaycanı nəinki Cənubi Qafqaz regionunda, ümumilikdə Avratlantika geosiyasi arealında öz sözü və mövqeyi olan dövlətə çevirən İlham Əliyev qlobal layihələri ilə ölkəmizi dünyada cəlbedici investisiya məkanı kimi tanıdıb.

Təsadüfi deyil ki, dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Aparıcı dövlətlər ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu bəyan edirlər.

Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən bir çox nəhəng layihə regionun, Avrasiya məkanının enerji və nəqliyyat xəritəsini dəyişdirib, bölgənin və daha geniş coğrafiyanın enerji təhlükəsizliyinin təmin edilməsinə, nəqliyyat-kommunikasiya, logistika infrastruktrunun inkişafına yüksək töhfə verib. Ölkəmiz “Şərq-Qərb” və “Şimal-Cənub” nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olaraq hazırda digər mühüm layihələr - “Cənub-Qərb” və “Şimal-Qərb” layihələri üzərində iş aparır. Bununla da Azərbaycan etibarlı tranzit ölkəsi kimi qəbul edilir.

Martın 11-də imzalanan sənəd isə bu istiqamətdə həyata keçirilən layihələrin növbəti təntənəsidir. Öncə onu qeyd edək ki, iki ölkənin diplomatik münasibətlərinin qurulmasının 30-cu ildönümündə belə bir tarixi hadisənin baş verməsi qürurvericidir. Onu da vurğulamaq yerinə düşər ki, iki ölkənin münasibətləri son zamanlarda yeni inkişaf mərhələsinə qədəm qoyub. Qlobal böhran şəraitində belə iqtisadi dövriyyə 30 faiz artıb. Pandemiya şəraitini nəzərə alsaq, Azərbaycan və İran arasında iqtisadi dövriyyənin 30 faiz artması çox yaxşı nəticədir.

Ardı 4-cü səh.

## Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında qarşılıqlı fəaliyyət bundan sonra da uğurla davam edəcəkdir

**Roma Papası Fransisk Həzrətlərinə**



Zati-müqəddəsləri!

Tacqoyma Gününüz münasibətilə Sizə və Sizin simanızda bütün həmməzhəblərinizə şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram.

Bu il diplomatik əlaqələrin qurulmasının 30 illiyini qeyd edən Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında münasibətlər bizim üçün xüsusi əhəmiyyət daşıyır. Çoxəsrlik tolerantlıq ənənələrinə və multikultural dəyərlərə sadiq qalan Azərbaycanla Müqəddəs Taxt-Tac arasında illərdən bəri təşəkkül tapmış ali səviyyəli səmimi dialoq və qarşılıqlı anlaşma bizi olduqca sevindirir.

Bu münasibətlərin möhkəmlənməsinə Sizin şəxsi töhfənizi yüksək qiymətləndirir, dinlərarası və mədəniyyətlərarası konstruktiv dialoqun təşviqində Azərbaycanın öncül roluna verdiyiniz qiymətə görə minnətdarlığımı bildirirəm.

Azərbaycanda dini-mənəvi müxtəlifliyin, o cümlədən xristian dini irsinin qorunub-saxlanılması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Bu xüsusda ölkəmizdə katolik dini icmasına böyük diqqət və qayğı göstərilir. Eyni zamanda Heydər Əliyev Fondunun Vatikanda həyata keçirdiyi layihələr ölkəmizin dünya mədəni irsinin qorunmasına verdiyi önəmin bariz nümunəsidir.

İnanıram ki, ümumbəşəri dəyərlərin təbliği və sivilizasiyalararası anlaşmanın bərqərar olması naminə Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında qarşılıqlı fəaliyyət və səmərəli əməkdaşlıq bundan sonra da birgə səylərimizlə uğurla davam edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm can-sağlığı, humanizm ideallarının təntənəsi uğrunda ali mənəvi missiyanızda müvəffəqiyyətlər arzulayıram.

Hörmətlə,

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 10 mart 2022-ci il*

## Birinci vitse-prezident Mehriban Əliyeva Xalq yazıçısı Rüstəm İbrahimbəyovun vəfatı ilə əlaqədar onun ailəsinə başsağlığı verib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Xalq yazıçısı Rüstəm İbrahimbəyovun vəfatı ilə əlaqədar rəsmi “İnstaqram” səhifəsində paylaşım edib.



AZƏRTAC paylaşımı təqdim edir: “Azərbaycan Respublikasının Xalq yazıçısı Rüstəm İbrahimbəyovun vəfatı ilə əlaqədar onun ailəsinə dərin hüznlə başsağlığı verirəm. Onunla keçirilən görüşlərimizi hər zaman xatırlayacağam. Allah rəhmət eləsin”.

## Avropaya qaz nəqlinin artırılması yenə də gündəmdədir



**Bu məsələ Azərbaycan və Türkiyə dövlət başçılarının Ankara görüşündə bir daha müzakirə olundu**

Regionun və Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan “Cənub qaz dəhlizi”nin əhəmiyyəti getdikcə artır. Qaza tələbatın çoxaldığı indiki dövrdə bu möhtəşəm layihə daha böyük önəm kəsb edir.

Təsadüfi deyil ki, bu il martın 10-da Ankarada Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşündə də dəhlizin uğurla fəaliyyət göstərdiyi qeyd olunub.

Görüşdə Azərbaycan və Türkiyə arasında enerji sahəsində əməkdaşlıq məsələlərinə də toxunulub. Bu xüsusda dəhliz vasitəsilə Türkiyəyə və onun ərazisindən keçərək Avropaya qaz təchizatının artırılması imkanları müzakirə edilib.

Qeyd edək ki, ixracın ahəngdarlığına hasilatın davamlı olması imkan verir. Azərbaycanda cari ilin birinci ayında ümumilikdə 4,1 milyard kubmetr təbii qaz hasil olunub. Odur ki, ixrac da nəzərdə tutulan qrafikə uyğun davam edir.

Bu həcmin 1,2 milyard kubmetri “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlarından, 2,2 milyard kubmetri “Şahdəniz”dən, 0,7 milyard kubmetri SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) üzrə əldə edilib.

Ardı 4-cü səh.



## Dünya iqtisadiyyatı yeni sınaq qarşısında

**Azərbaycanın bu sınaqdan da itkisiz çıxmaq imkanları genişdir**

Bax: səh. 4

## Fermerlərə güzəştli şərtlərlə satılan müasir texnika və avadanlıqlar məhsuldarlığı artırmağa imkan verir



Bax: səh. 5

## XXVIII Dünya Çempionatı

# Akrobatlarımızın tarixi uğuru

**Böyüklər səviyyəsində ilk mundiallarına qatılan idmançılarımızın hədəfi qızıl medaldır**



Bakıda akrobatika gimnastikası üzrə 28-ci dünya çempionatı davam edir. Yarışların ikinci günü Daniel Abbasov və Murad Rəfiyevdən ibarət kişi cütlüyümüz bürünc medala sahib olub. İdmançılarımızın qarışıq hərəkət üzrə final mərhələsində çıxışı 28,270 xalla qiymətləndirilib. Yarışın qalibi ABŞ akrobatları olub - 28,400 xal. Qazaxıstanlı cütlük 28,330 xalla yarışı ikinci pillədə başa vurub.

Ardı 8-ci səh.

## Koronavirus insan psixologiyasına da təsir edir

İki ildən çoxdur dünyada davam edən COVID-19 pandemiyası bütün sahələrə təsir edib. Dünyanı dəyişən bu xəstəlikdən ən çox təsirlənən isə insan psixologiyasıdır.



Ardı 8-ci səh.

## *Hikmət HACIYEV:* “Azərbaycan tərəfi Ermənistanla müzakirələrə hər zaman açıqdır, lakin görüşlər və müzakirələr nəticəli olmalıdır”



“Antalya Diplomatiya Forumunu yüksək peşəkarlıqla təşkil etdiyi üçün qardaş Türkiyəni təbrik edirik. Artıq bu forum dünya miqyaslı platformalardan birinə çevrilib”.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə açıqlamasında söyləyib.

Ermənistanla Azərbaycan arasında normallaşma proseslərinə, regional məsələlərə dair sualları cavablandıran Prezidentin köməkçisi Hikmət Hacıyev deyib ki, Azərbaycan qarşı tərəflə müzakirələrə hər zaman açıqdır. Ermənistan tərəfi ilə görüşlər, müzakirələr görünüş üçün, formal xarakterli deyil, konkret məsələlər üzərində nəticəli şəkildə aparılmalıdır.

## *Tahir BUDAQOV:* “Antalyada YAP ilə AK Parti arasında əməkdaşlığın perspektivləri ətrafında faydalı müzakirələr apardıq”

“Artıq ikinci ildir keçirilən Antalya Diplomatiya Forumu ötənilki illə müqayisədə daha da genişlənib. Bu, həm iştirakçı dövlət və hökumət başçılarının, həm də, ümumiyyətlə, qatılanların sayında özünü göstərir. Forumun məqsədi daha ədalətli dünyanın qurulmasında diplomatik yollar axtarmaqdır”.



AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Antalya Diplomatiya Forumu çərçivəsində bildirib.

Dünyanı narahat edən problemlərin müzakirə olduğu forumda iştirak etməyin Yeni Azərbaycan Partiyası üçün faydalı olduğunu diqqətə çatdıran YAP Sədrinin müavini Tahir Budaqov deyib ki, tədbir çərçivəsində Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri, Türkiyənin Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini Binəli Yıldırım ilə görüşdə iki qardaş ölkənin hakim partiyaları arasında imzalanmış əməkdaşlıq protokolunda nəzərdə tutulan müddəaların icrası, perspektivdə olan məsələlər ətrafında faydalı müzakirələr aparılıb.

## Azərbaycan Antalya Diplomatiya Forumu çərçivəsində “Parlament diplomatiyası” mövzusunda keçirilən “dəyirmi masa”da geniş tərkibdə təmsil olunub





Antalya Diplomatiya Forumu çərçivəsində “Parlament diplomatiyası” mövzusunda keçirilən “dəyirmi masada” Azərbaycan geniş tərkibdə iştirak edib.

AZƏRTAC xəbər verir ki, “dəyirmi masa”da Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi, Ümumdünya Elmlər Akademiyasının fəxri professoru və Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Asəf Hacıyev, Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, ölkəmizin Avropa Şurası Parlament Assambleyası yanında nümayəndə heyətinin rəhbəri Səməd Seyidov, Azərbaycan Milli Məclisinin deputatı, Azərbaycan-Türkiyə Parlamentlərarası Dostluq Qrupunun üzvü Ramil Həsən, Milli Məclisin ATƏT PA-da nümayəndə heyətinin rəhbəri, ATƏT PA-nın vitse-prezidenti və Cənub-Şərqi Avropa üzrə xüsusi nümayəndəsi Azay Quliyev, Azərbaycan Milli Məclisinin deputatı Tural Gəncəliyev və başqaları mövzu ətrafında fikir və mülahizələrini bölüşüblər.

Çıxışlarda vurğulanıb ki, ənənəvi diplomatiyanı tamamlayan parlament diplomatiyası milli ehtiyac ilə gözləntilərin və digər parlamentlərin nailiyyətlərinin daha geniş perspektivdən qiymətləndirilməsinə imkan verməklə problemlərin həlli yollarını tapmağı hədəfləyir.

Müzakirələrdə parlamentlər arasında ikitərəfli və çoxistiqamətli əməkdaşlıq əlaqələri, parlament diplomatiyasının inkişafı baxımından mühüm amil kimi dəyərləndirilib.

Azərbaycan təmsilçilərinin Milli Məclisin fəaliyyəti, deputatlarımızın beynəlxalq parlament diplomatiyası mühitində fəal iştirakı, bu sahədə əldə olunan uğurlar, həmçinin Yeni Azərbaycan Partiyası deputatlarının beynəlxalq təşkilatlardakı təmsilçiliyi barədə məlumatları iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

## Azərbaycanın xarici işlər naziri Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində bir sıra görüşlər keçirib




Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov martın 12-də Qambiya Respublikasının xarici işlər, beynəlxalq əməkdaşlıq və xaricdə yaşayan qambiyalılar naziri Mamadu Tanqara ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər ikitərəfli və çoxtərəfli müstəvilərdə əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Qambiya naziri Azərbaycanda 2020-ci ildə səfərdə olduğunu və keçirilən yüksəksəviyyəli görüşləri məmnunluqla xatırlayıb. İki ölkə arasında təmasların davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı çərçivəsində uğurlu əməkdaşlığın davam etdirilməsi ilə bağlı qarşılıqlı razılıq ifadə olunub.

Azərbaycan hökuməti tərəfindən Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı ölkələrinə təhsil təqaüdünün ayrıldığı və bu çərçivədə, Qambiya gənclərinin də bu təqaüdlərdən faydalanmaq imkanları xüsusilə qeyd edilib.

Nazirlər, həmçinin qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

* * *




Martın 12-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) icraçı direktoru Kairat Sarıbay ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, icraçı direktor görüşdə Azərbaycanın ilk gündən etibarən AQEM təşəbbüsünə davamlı dəstək göstərdiyini məmnunluq və minnətdarlıqla qeyd edib. O, xüsusilə Azərbaycanın AQEM çərçivəsində nəqliyyat dəhlizlərinin təhlükəsizliyi və səmərəli inkişafı üçün etimad quruculuq tədbirləri üzrə əlaqələndirici rolunu yüksək qiymətləndirib, sözügedən istiqamətdə ötən ilin sentyabrında keçirilən ekspertlər görüşünün çox faydalı olduğunu vurğulayıb. Kairat Sarıbay, həmçinin təhlükəsiz və səmərəli nəqliyyat dəhlizlərinin qurulmasının AQEM çərçivəsində əsas istiqamətlərdən biri olduğunu qeyd edib. İcraçı direktor bu ilin oktyabrında keçiriləcək AQEM-in Sammitinə hazırlıq prosesi barədə məlumat verib.

Nazir Ceyhun Bayramov Azərbaycanın AQEM çərçivəsində əməkdaşlığa əhəmiyyət verdiyini və sözügedən platformanın işində ölkəmizin yaxından iştirak etdiyini vurğulayıb. O, həmçinin Azərbaycanın nəqliyyat dəhlizlərinin inkişafına verdiyi önəmi və bu istiqamətin prioritet xarakter daşıdığını qeyd edib. Xüsusilə postmünaqişə mərhələsində bölgədə yaranan yeni əməkdaşlıq imkanları kontekstində Zəngəzur dəhlizinin açılmasının əhəmiyyətini vurğulayan nazir bu xüsusda Azərbaycanın mövqeyini ifadə edib.

Nazir Ceyhun Bayramov eyni zamanda AQEM platformasının inkişafı ilə bağlı səylərin Azərbaycan tərəfindən dəstəkləndiyini bildirib.

Görüşdə tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında, habelə AQEM-in bu ilin oktyabrında keçiriləcək Zirvə görüşünə hazırlıq işləri barəsində fikir mübadiləsi aparıblar.

* * *




Martın 12-də Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) prezidenti Peter Maurer ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə BQXK arasında uzun illərdən bəri mövcud olan əməkdaşlığın cari vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılıb. Azərbaycanla BQXK arasında Ermənistanın 30 ilə yaxın davam edən hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması istiqamətində göstərilən fəaliyyət qeyd edilib.

BQXK-nın prezidenti Azərbaycanla əməkdaşlığa açıq olduğunu diqqətə çatdırıb, bu illər ərzində həyata keçirilən işbirliyindən məmnunluqlarını ifadə edib.

Nazir Ceyhun Bayramov itkin düşmüş şəxslərlə bağlı məlumatın əldə edilməsi, o cümlədən 1990-cı illərin əvvəllərindən itkin düşmüş 4000-ə yaxın azərbaycanlının taleyinin müəyyən edilməsi üçün müvafiq işlərin davam etdirilməsinin vacibliyini vurğulayıb.

Görüşdə eyni zamanda Azərbaycanın azad edilmiş ərazilərində mina və bunun doğurduğu humanitar fəlakət məsələləri müzakirə mövzusu təşkil edib. Tərəflər mina probleminin nəticələrinin aradan qaldırılmasında Azərbaycanın BQXK ilə mümkün əməkdaşlığı üzrə fikir mübadiləsi aparıblar. Tərəflər, həmçinin humanitar fəaliyyətlə bağlı qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər.

* * *



Martın 12-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Avropa İttifaqının (Aİ) Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi, Aİ Komissiyasının vitse-prezidenti Cozef Borel ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə tərəflər Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlıq perspektivlərini, enerji sahəsində strateji tərəfdaşlıq məsələlərini müzakirə ediblər.

Tərəflər Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin hüquqi əsasını təşkil edəcək yeni saziş üzrə danışıqların tezliklə yekunlaşdırılmasının vacibliyini vurğulayıblar. Eyni zamanda, Ukraynadakı vəziyyət, ölkəyə humanitar yardımın göstərilməsi məsələləri müzakirə mövzusunu təşkil edib.

Nazir Ceyhun Bayramov regiondakı son vəziyyət, üçtərəfli bəyanatların icrası məsələləri, bölgədə həyata keçirilən bərpa və yenidənqurma işləri ilə bağlı məlumat verib, habelə iki ölkə arasında münasibətlərin normallaşmasına dair Azərbaycanın baxışını bölüşüb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *



Martın 12-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumu çərçivəsində BMT-nin Sivilizasiyalar Alyansının (UNAOC) ali nümayəndəsi Migel Angel Moratinos ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Migel Angel Moratinos Azərbaycanda dinlərarası və sivilizasiyalararası dialoqa verilən əhəmiyyəti, habelə bu istiqamətdə görülən işləri yüksək qiymətləndirib. Azərbaycan tərəfindən bu xüsusda atılan addımların əlamətdar və nümunəvi olduğunu bildirib. Özünün Azərbaycana müxtəlif vaxtlarda səfərlərini xatırlayan Migel Angel Moratinos Azərbaycana son səfəri zamanı işğaldan azad olunmuş əraziləri ziyarət etdiyini və oradakı dağıntıları öz gözləri ilə gördüyünü vurğulayıb. Azərbaycan ilə əməkdaşlığın növbəti mərhələdə möhkəmləndirilməsi istiqamətində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin xətti ilə “Peace for Culture”nin təşəbbüsü çərçivəsində addımların atıldığını bildirən Migel Angel Moratinos, yaxın gələcəkdə anlaşma memorandumunun imzalanacağı və bu xüsusda Nyu Yorkda xüsusi tədbirin keçiriləcəyini qeyd edib.

Sonra çıxış edən xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda ənənəvi olaraq çoxmillətli və müxtəlif dinlərə məxsus insanların sülh şəraitində yaşadığını bildirib. Azərbaycanın multikulturalizm ənənələri haqda ətraflı məlumat verən nazir, multikulturalizmin Azərbaycanda dövlət siyasəti olduğunu qeyd edib. Eyni zamanda, C.Bayramov Azərbaycanın münaqişənin təsirinə məruz qalan ərazilərində yaşayan erməni əsilli vətəndaşların bütün Azərbaycan vətəndaşları ilə eyni hüquq və azadlıqlarını təmin edərək onları yenidən öz siyasi, sosial, iqtisadi məkanına reinteqrasiya etmək üçün addımlar atmaqda qətiyyətli olduğunu bildirib.

Postmünaqişə dövründə işğaldan azad olunmuş ərazilərdə mədəni irsin mühafizə və bərpası istiqamətində atılan addımlara toxunan nazir, bu xüsusda işğaldan azad olunmuş ərazilərdə dini və etnik mənsubiyyətindən asılı olmayaraq bütün mədəni irs nümunələrinin qorunması, bərpası, habelə restavrasiyası istiqamətində beynəlxalq ekspert və qurumlarla əməkdaşlıq edildiyini diqqətə çatdırıb, həmçinin bunun Azərbaycanın sözügedən prosesdə nə qədər şəffaf və açıq olduğunu göstərdiyini bildirib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

## *Ceyhun BAYRAMOV:* “Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması üçün bəzi prinsiplərin çərçivəsini təqdim etmişik”

“Azərbaycan nümayəndə heyəti Antalya Diplomatiya Forumunda fəal iştirak edib. Forum ikinci dəfə keçirilməsinə baxmayaraq, beynəlxalq münasibətlər baxımından böyük uğur qazanıb”.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunun yekunları ilə bağlı mediaya açıqlamasında söyləyib.

Azərbaycan nümayəndələrinin forum çərçivəsində keçirilən panel və “dəyirmi masa”lardakı çıxışlarını, keçirilən ikitərəfli görüşləri yüksək dəyərləndirən nazir Ceyhun Bayramov 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğalı faktına son qoyulduğunu, bundan sonra bölgədə baş verən proseslərin inkişaf məcrasını xatırladaraq deyib: “Ermənistan-Azərbaycan dövlətlərarası münasibətlərin normallaşması üçün bəzi prinsiplərin çərçivəsini təqdim etmişik”.



## Azərbaycan-Türkiyə enerji əməkdaşlığının inkişafı müzakirə edilib



Antalya Diplomatiya Forumu çərçivəsində energetika naziri Pərviz Şahbazov Türkiyənin energetika və təbii sərvətlər nazirinin müavini Alparslan Bayraktar ilə görüşüb.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Türkiyə enerji əməkdaşlığının hər iki ölkə üçün faydalarından məmnunluq ifadə edilib. TANAP layihəsinin Türkiyənin təbii qaz tələbatının ödənilməsinə töhfələri qeyd edilib. İğdır-Naxçıvan qaz boru kəməri layihəsi üzrə işlərin gedişatı nəzərdən keçirilib. Təbii qaz və elektrik enerjisi üzrə əməkdaşlığın inkişafı üçün imkanlar ətrafında fikir mübadiləsi aparılıb.

## Hazırda enerji trilemmasının hər üç aspekti - təhlükəsizlik, əlçatanlıq və davamlılıq arasında balans pozulub

Energetika naziri Pərviz Şahbazov Antalya Diplomatiya Forumu çərçivəsində “Enerji təhlükəsizliyində qarışıqlıq” mövzusunda keçirilən panel müzakirələrində çıxış edib.



AZƏRTAC xəbər verir ki, nazir enerji məsələləri üzrə beynəlxalq ekspert Brenda Şafferin moderatorluğu ilə Türkiyənin energetika və təbii sərvətlər nazirinin müavini Alparslan Bayraktar və beynəlxalq ekspert Metyu Brayzanın iştirak etdiyi paneldə forumu Türkiyənin qlobal gündəlikdə olan məsələlərin dialoq müstəvisinə keçirilməsinə töhfə verən təşəbbüslərindən biri kimi qiymətləndirib. Türkiyənin enerji təhlükəsizliyi ilə bağlı məsələlərdə də etibarlı tərəfdaş olduğu və Azərbaycanın bütün enerji təhlükəsizliyi layihələrini Türkiyə ilə birgə reallaşdırdığı vurğulanıb. Nazir ölkələrimiz arasında enerji əməkdaşlığı, “Cənub qaz dəhlizi” ilə qaz təchizatının artırılması məsələsinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu günlərdə Türkiyə səfərində də müzakirə edilən prioritet istiqamətlərdən olduğunu qeyd edib.

Energetika naziri enerji bazarlarında mövcud vəziyyət, dayanıqlı enerji təchizatında təbii qazın artan rolu və Azərbaycanın enerji resurslarının müxtəlifliyinə əsaslanan enerji siyasətinə dair fikirlərini bölüşüb. Bildirilib ki, hazırda enerji trilemmasının hər üç aspekti - təhlükəsizlik, əlçatanlıq və davamlılıq arasında balans pozulub: “Bir tərəfdən enerji keçidindən qaynaqlanan enerji böhranı, digər tərəfdən isə davam edən siyasi gərginliklər enerji bazarlarını kəskin şəkildə qeyri-sabit və volatil edib. Bu problemi son dövrlərdə bazar iştirakçılarının enerji siyasəti, enerji resurslarına ədalətli olmayan yanaşmaları yaradıb, siyasi prosesləri isə daha da dərinləşdirib”.

Nazir dayanıqlı enerji həllərinin bu gün olduğu kimi sabah da əsas çağırışlardan biri olacağını, bu aspektdə təbii qazın enerji keçidi prosesində əhəmiyyətli rol oynayacağını qeyd edib. Enerji təhlükəsizliyi ilə ekoloji təhlükəsizlik arasında balansın təmin edilməsinin daha rasional yanaşma olduğunu və bir enerji resursundan asılılığın enerji bazarları üçün qeyri-sabitliyə yol açdığını bildirib. Həmçinin qeyd edilib ki, ötən ildən başlanan enerji böhranı kömür kimi karbon emissiyası çox olan enerji növündən istifadəni artırmaqla karbon neytrallığı hədəfinə doğru məsafənin uzanmasına səbəb olub.

Ölkəmizin enerji təhlükəsizliyinin möhkəmləndirilməsini təbii qazla bərpa olunan enerjinin birgə inkişafında gördüyünü deyən nazir, hər iki sahə üzrə hədəfləri və planları diqqətə çatdırıb. Nazir deyib ki, “Cənub qaz dəhlizi” istehlakçıları fasiləsiz və münasib qiymətə qazla təchiz etməklə uğurlu layihə olduğunu təsdiqləyib: “TAP istismara veriləndən indiyə qədər Avropaya 9,7 milyard kubmetr qaz ixrac edilib. Bu il qaz ixracımız Türkiyəyə 8,2 milyard kubmetrə, Avropaya isə 9,1 milyard kubmetrə qədər artacaq”.

Energetika naziri onu da əlavə edib ki, dəhlizin unikallığı “Cənub qaz dəhlizi”nin yeni istehlak istiqamətləri kimi, tədarük mənbələrinin də şaxələndirilməsini mümkün edir. Azərbaycanın nəhəng qaz ehtiyatları, mövcud infrastruktur və müxtəlif ölkələrin Azərbaycan qazına marağı dəhlizin genişləndirilməsini aktuallaşdırıb. Artıq bu istiqamətdə fəaliyyətə başlamağın zamanıdır, - deyə nazir bildirib.

Energetika naziri yalnız Xəzər dənizinin qazını deyil, həm də zəngin külək enerjisi potensialından yararlanmaqla elektrik enerjisinin ixracı ilə bağlı planları da diqqətə çatdırıb.

Xatırladaq ki, Türkiyə Prezident Administrasiyasının himayədarlığı ilə Xarici İşlər Nazirliyi tərəfindən təşkil olunan Antalya Diplomatiya Forumu dünyanın bir çox ölkəsindən dövlət və hökumət başçıları, nazirlər, tanınmış dövlət və siyasi xadimləri, nüfuzlu siyasətçilər, elm, fikir və iş adamları və media nümayəndələrini bir araya gətirən və dialoqu təşviq edən platformadır.

# Prezidentin köməkçisi "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüşüb

Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüşüb.








Görüşdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin sədri Fərəh Əliyeva, gənclər və idman nazirinin müavini, "Yüksəliş" müsabiqəsinin İşçi qrupunun rəhbəri Fərhad Hacıyev də iştirak edib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə qaliblərlə tanış olan Şahmar Mövsümov daha sonra onlara əsas milli inkişaf prioritetlərindən bəhs edib. Bu prioritetlərin içində insan kapitalının inkişaf etdirilməsinin dövlətin xüsusi marağında olduğunu qeyd edən Prezidentin köməkçisi "Yüksəliş" müsabiqəsinin bu istiqamətdə xüsusi əhəmiyyət kəsb etdiyini söyləyib. Daha sonra Şahmar Mövsümov qeyri-neft sahəsinin inkişafı, iqtisadi və informasiya texnologiyaları sahələrinin inkişafı ilə bağlı qaliblərin təkliflərini dinləyib, suallarını cavablandırıb.

Şahmar Mövsümov "Yüksəliş" müsabiqəsinin qaliblərinə şəxsi idarəçilik təcrübəsi əsasında tövsiyələrini də verib. Kommunikasiya bacarıqlarının doğru istifadə edilməsi üçün dürüstlüyün ən vacib amil olduğunu qeyd edən Prezident Administrasiyasının şöbə müdiri qaliblərə stereotiplərdən qaçaraq, daim araşdırmağın vacib bacarıq olduğunu bildirib.

Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin sədri Fərəh Əliyeva Şahmar Mövsümova iştirak üçün təşəkkürünü bildirərək gələcəkdə belə görüşlərin mütəmadi təşkil ediləcəyini söyləyib.

Qeyd edək ki, ikinci "Yüksəliş" müsabiqəsinin qeydiyyat mərhələsi davam edir.

"Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 26 iyul tarixli sərəncamı ilə intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini, ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunub.

# Vətənə, dövlətə, xalqa sədaqət nümunəsi

## Daxili İşlər Nazirliyinin Daxili Qoşunları yaranmasının növbəti ildönümünü qeyd edir







Martın 12-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunları yaranmasının növbəti ildönümünü qeyd edir.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu münasibətlə həmin gün Daxili Qoşunların Baş İdarəsində təntənəli mərasim keçirilib.

Tədbirdə daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov və Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyev iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların, eləcə də bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Qurumun yaranması, inkişafı və fəaliyyəti barədə məruzə ilə çıxış edən daxili işlər nazirinin müavini - Daxili Qoşunlar komandanı, general-leytenant Şahin Məmmədov deyib ki, Ulu Öndər Heydər Əliyevin 1995-ci il 9 mart tarixli fərmanı ilə Daxili Qoşunların şəxsi heyətinin Ermənistanın hərbi təcavüzünə qarşı döyüşə başladığı ilk gün - martın 12-si Daxili Qoşunlar Günü kimi təsis olunub. Ötən müddətdə Daxili Qoşunlar ciddi sınaq və çətinliklərdən dəyanətlə çıxıb. Torpaqlarımızın müdafiəsi uğrunda aparılan Birinci Qarabağ müharibəsi zamanı döyüş əməliyyatlarında Qoşunların 510 hərbi qulluqçusu həlak olub, 1166 nəfər yaralanıb, 268 nəfər isə itkin düşüb. Hərbi qulluqçulardan 9-u "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Daxili Qoşunların hərbi qulluqçularının böyük zəfərlə başa çatan Vətən müharibəsində də iştirak edərək mərdlik, qəhrəmanlıq, vətənpərvərlik nümunələri göstərdiyini bildirən general-leytenant Ş.Məmmədov düşmənlə ağır döyüşlərdə Qoşunların 66 hərbçisinin şəhid olduğunu, 346 nəfərin isə yaralandığını, Prezident tərəfindən Qoşunların Vətən müharibəsində döyüş tapşırıqlarını yerinə yetirən 1377 hərbçisinin yüksək dövlət təltiflərinə, o cümlədən 4 nəfərin "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldüyünü bildirib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyev Daxili Qoşunların yaranmasının növbəti ildönümü münasibətilə Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin səmimi təbriklərini və ən xoş arzularını tədbir iştirakçılarına çatdırıb. O, çıxışında təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu ənənələrinin bu gün də uğurla davam və inkişaf etdirildiyini, ali diqqət və qayğı, eyni zamanda, ciddi nəzarət, tələbkarlıq sayəsində Daxili Qoşunların qarşıya qoyulan, qanunvericiliklə üzərinə düşən bütün vəzifələrin öhdəsindən gələ bilən, yüksək peşəkarlığa, döyüş və fiziki hazırlığa malik mobil bir quruma çevrildiyini vurğulayıb.

Sonra çıxış edən daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Ümummilli Lider Heydər Əliyevin ordu quruculuğu prosesində Daxili İşlər Nazirliyi sisteminin əsas struktur qurumlarından olan Daxili Qoşunların təkmilləşməsinə böyük önəm verdiyini, məhz onun xüsusi diqqət və qayğısı ilə formalaşıb inkişaf etdiyini məmnunluqla xatırladıb.

Nazir vurğulayıb ki, bu gün Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ali diqqət və qayğısının, tələb və göstərişlərinin nəticəsi olaraq, Daxili Qoşunlar qarşısına qoyulan istənilən döyüş tapşırığını yüksək keyfiyyətlə yerinə yetirməyə qadirdir. Müzəffər Ali Baş Komandanın əmri ilə düşmən həmlələrinə qarşı keçirilən "Dəmir yumruq" əkshücum əməliyyatlarında hərbi qulluqçularımız bunu bir daha təsdiq etdi.

İki ildən artıq müddətdə dünyanın, o cümlədən Azərbaycanın, son yüz ilin ən böyük qlobal çağırışlarından biri ilə üzləşdiyini, bəşəriyyətin COVID-19 virusuna qarşı mübarizə apardığını, xüsusi karantin rejimində yaşadığımızı vurğulayan general-polkovnik Vilayət Eyvazov bu müddətdə polis əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının gücləndirilmiş iş rejimində xidmət apardıqlarını, insanların həyati problemlərinin həllinə kömək etdiklərini vurğulayıb. Nazir bildirib ki, ölkə rəhbərinin Daxili Qoşunların müxtəlif tədbirlərində iştirakı, eləcə də Qoşunların xidməti fəaliyyətinə verdiyi yüksək qiymət, haqqında söylədiyi dəyərli fikirlər, verdiyi tövsiyələr hər zaman fəaliyyət proqramı kimi qəbul olunmaqla şəxsi heyəti daha böyük uğurlara ruhlandırır. Məhz Ali Baş Komandanın əvəzsiz dəstəyi sayəsində Daxili Qoşunların maddi-texniki bazasının, kazarma-yaşayış fondunun yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, hərbi hissələr ən yüksək beynəlxalq standartlara uyğun texnika, xüsusi vasitələr və rabitə sistemləri ilə təchiz edilib.

Diqqətə çatdırılıb ki, Daxili Qoşunlar 25 ildir Türkiyənin Jandarma Qüvvələri Baş Komandanlığı ilə sıx əməkdaşlıq edir. Bu illər ərzində Jandarm Qüvvələrinin yardımı ilə Qoşunlarda xidməti-döyüş fəaliyyəti və kadr hazırlığı işi müasir tələblərə uyğun qurulub.

Nazir Vilayət Eyvazov əldə edilmiş uğurlarda danılmaz roluna, təmənnasız yardımlarına görə dost və qardaş dövlətin Jandarma Qüvvələri Baş Komandanlığının rəhbərliyinə, hərbi mütəxəssislərinə təşəkkürünü bildirib.

Möhtəşəm qələbəmizlə nəticələnmiş Vətən müharibəsi günlərində şəxsi heyətin ölkədə hərbi vəziyyət rejimini etibarlı təmin etməsini, bu gün isə işğaldan azad olunmuş ərazilərdə şərəfli xidmətini peşəkarlıqla davam etdirdiyini vurğulayan nazir Vilayət Eyvazov Qoşunların hərbi qulluqçularının bundan sonra da vətəndaşların və dövlətin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarıqlarını əsirgəməyəcəklərinə, asayişin və daxili təhlükəsizliyin keşiyində qətiyyətlə dayanacaqlarına əminliyini ifadə edib.

Sonra xidmətdə fərqlənən bir qrup hərbi qulluqçunun təltif olunması barədə daxili işlər nazirinin və nazir müavini - Daxili Qoşunların komandanının imzaladıqları əmrlər elan olunduqdan sonra mükafatlar sahiblərinə təqdim edilib.

Tədbirin sonunda mərasim iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə müraciət qəbul olunub.

# Azərbaycanın və Türkiyənin müdafiə nazirləri arasında telefon danışığı olub

Martın 12-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə Türkiyə Respublikasının milli müdafiə naziri cənab Hulusi Akar arasında telefon danışığı olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Z.Həsənov H.Akarı 70 illik yubileyi münasibətilə təbrik edib, ona möhkəm cansağlığı, uzun ömür və Türkiyə Silahlı Qüvvələrinin inkişafı naminə fəaliyyətlərində daha böyük uğurlar arzulayıb.

Tərəflər regional təhlükəsizlik, ikitərəfli hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivlərini müzakirə ediblər.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciətlərini dinləyir, qaldırdıqları məsələlərin müsbət həll olunması üçün tədbirlər görürlər.

Martın 12-də təhsil naziri Emin Əmrullayev Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl, Samux və Kəlbəcər rayonlarında qeydiyyatda olan sakinləri, həmçinin həmin şəhər və rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünləri qəbul edib. Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Bu barədə AZƏRTAC-a Təhsil Nazirliyindən məlumat verilib.

Pandemiya qaydalarına uyğun olaraq keçirilən qəbulda vətəndaşlar əsasən müəllimlərin işə qəbulu və yerdəyişməsi, işlə təmin olunma, məktəb binalarının əsaslı təmir və tikintisi, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Nazir qəbula yazılan vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

* * *

Gənclər və İdman Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbul cədvəlinə müvafiq olaraq, gənclər və idman naziri Fərid Qayıbov martın 11-də Tovuz şəhərində Tovuz, Qazax və Ağstafa rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Tovuz şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub, xatirəsi ehtiramla yad olunub.

Tovuz şəhər Heydər Əliyev Mərkəzində keçirilən qəbula gələn vətəndaşların müraciətləri əsasən yaşadıqları ərazilərdə idman qurğularının inşa edilməsi, işlə təminat və digər məsələlər olub. Nazir Fərid Qayıbov hər bir vətəndaşı diqqətlə dinləyib, müraciətlərinin həlli üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb. Qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan bəzi müraciətlər müvafiq qurumlara çatdırılması üçün qeydiyyata alınıb.

Qəbulda nazir müavini Mariana Vasileva, Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov və nazirliyin məsul əməkdaşları da iştirak ediblər.

# Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində elmi konfrans keçirilib

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin təşkilatçılığı ilə 2022-ci ilin elmi iş planına uyğun olaraq, Kursant Hərbi Elmi Cəmiyyətinin növbəti konfransı keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, konfransın əsas məqsədi elmi və elmi-tədqiqat işinə meyilli kursantların aşkar edilməsi, hərb elminin inkişafında onların rolunun artırılması və "Ən yaxşı məruzəçi"lərin respublika miqyaslı analoji tədbirlərdə iştirakının təmin olunmasıdır.

Konfransda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin şəxsi heyəti ilə yanaşı, Dövlət Təhlükəsizliyi Xidmətinin, Dövlət Sərhəd Xidmətinin təhsil müəssisələrinin zabit və kursantları da iştirak ediblər.

Üç bölmə üzrə təşkil olunan konfransda ümumilikdə 70 kursantın məruzəsi dinlənilib.

Konfransın yekununda iştirakçılara sertifikatlar təqdim olunub.

# *Ukrayna səfiri:* "Humanitar yardıma görə Azərbaycan Prezidentinə və xalqına təşəkkürümüzü bildiririk"




"Artıq iki həftədir Azərbaycan Ukraynaya müntəzəm olaraq humanitar yadım göndərir. Göndərilən yardımlar yüzlərlə yaralı insanı xilas edir. Azərbaycandan Ukraynaya hazırkı vəziyyətdə lazım olan tibbi avadanlıqlar, dərmanlar və qida məhsulları göndərilir. Buna görə Azərbaycan dövlətinə və xalqına, xüsusilə Prezident İlham Əliyevə təşəkkürümüzü bildiririk".

AZƏRTAC xəbər verir ki, bu sözləri Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski Ukraynaya humanitar yardımın yola salınması mərasimində jurnalistlərə müsahibəsində deyib.

Azərbaycan və Ukraynanın uzun illər həmrəylik nümayiş etdirdiklərini söyləyən səfir bildirib: "Biz, sadəcə, strateji tərəfdaşlar deyilik, biz həm də dost ölkələrik".

# Azərbaycandan Ukraynaya növbəti humanitar yardım göndərilib




Azərbaycan dövləti tərəfindən Ukrayna xalqına humanitar yardım məqsədilə təcili və təxirəsalınmaz hallarda tibbi yardımın göstərilməsi üçün dərman vasitələri və tibbi sərf, eləcə də ərzaq və qida məhsullarından ibarət növbəti yardım martın 12-də yola salınıb.

AZƏRTAC xəbər verir ki, ümumi məbləği 5,5 milyon avrodan artıq olan 380 tonluq humanitar yardımın Polşanın Rjeşov hava limanına çatdırılması üçün ilk təyyarə saat 09:00-da Heydər Əliyev adına Beynəlxalq Hava Limanından yola düşüb. Yardımın daşınması məqsədilə gün ərzində növbəti uçuşların həyata keçirilməsi nəzərdə tutulub. Xatırladaq ki, Ukraynadakı vəziyyətlə əlaqədar ölkə rəhbərliyinin tapşırığı ilə Azərbaycan tərəfindən Ukraynaya dərman vasitələri, tibbi sərf, cihaz və avadanlıqlardan ibarət 5,5 milyon avro məbləğində ilk humanitar yardım böhranın ilk günlərində - fevralın 27-də göndərilib.



# "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir olan güclü hərbi birləşməyə çevrilib

Martın 12-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranmasından 30 il ötür. Ümummilli Liderimiz Heydər Əliyevin 1995-ci il 9 mart tarixli fərmanı ilə hər il mart ayının 12-si Azərbaycan Respublikasının "Daxili Qoşunlar Günü" kimi qeyd olunur.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublikadakı ordu, birləşmə və hissələri kimi, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası da böyük təşkilatlanma və inkişaf yolu keçib, bu sahənin maddi-texniki bazası gücləndirilib.

1995-ci il aprel ayının 10-da Daxili Qoşunların Naxçıvandakı "N" saylı hərbi hissəsi, 2002-ci il dekabr ayının 4-də hərbi hissənin bazasında Daxili Qoşunların Naxçıvan Alayı, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 sentyabr tarixli sərəncamı ilə Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası yaradılıb. Ötən dövrdə briqada qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirib, ictimai asayişin qorunmasında zəngin xidməti təcrübə toplayaraq hərbi qulluqçuların döyüş hazırlığının təkmilləşdirilməsində mühüm nailiyyətlər qazanıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının maddi-texniki bazası xeyli möhkəmləndirilib, genişmiqyaslı quruculuq işləri həyata keçirilib, hərbi hissə abad və müasir şəhərciyə çevrilib. Ordu quruculuğu sahəsində aparılan məqsədyönlü islahatlar və mühüm əhəmiyyətə malik dövlət proqramlarının reallaşdırılması nəticəsində hərbi hissə yüksək standartlar səviyyəsində təchiz olunub. Üzərinə düşən vəzifələrin icrasına məsuliyyətlə yanaşaraq fəaliyyətini qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsi əsasında quran hərbi hissə Naxçıvan Muxtar Respublikasında daxili sabitliyin, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunub qorunmasında fəal iştirak edərək yüksək peşəkarlıq, döyüş və mənəvi-psixoloji hazırlığa malik olduğunu nümayiş etdirib.

Bu gün şəxsi heyətin döyüş qabiliyyətinin yüksəldilməsi ilə yanaşı, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması da daim diqqət mərkəzində saxlanılır. Hərtərəfli diqqət və qayğı sayəsində hərbi qulluqçuların maddi və sosial rifah halının artırılması istiqamətində əməli tədbirlər həyata keçirilib. Məhz bu tədbirlərin bariz nümunəsidir ki, 2021-ci ildə zabit-gizir ailələrinin istifadəsindəki təmirə ehtiyacı olan 38 mənzildən ibarət beşmərtəbəli yaşayış binası əsaslı təmir olunaraq istifadəyə verilib. Müasir standartlar səviyyəsində qurulan yaşayış binasının istifadəyə verilməsi hərbi qulluqçulara və onların ailə üzvlərinə olan diqqət və qayğının real təzahürüdür. Aparılan islahatlar, döyüş hazırlığının yüksəldilməsi, maddi-texniki təminat və hərbi qulluqçuların sosial vəziyyətinin yaxşılaşdırılması qarşıya qoyulan xidməti vəzifələrin layiqincə yerinə yetirilməsinə imkan verir.

Bu gün "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir olan güclü hərbi birləşməyə çevrilib. Naxçıvan Qarnizonu Qoşunlarının "2021-ci tədris ilinə uzlaşma planına" uyğun keçirilən təlimlərdə yüksək peşəkarlıq fəaliyyəti, həmçinin Türkiyə Respublikası Silahlı Qüvvələri ilə birlikdə keçirilən "Sarsılmaz Qardaşlıq - 2021" döyüş atışlı birgə taktiki təlimi bunu bir daha təsdiq etdi. Həmin təlimlərdə fəal iştirak edən "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası qarşıya qoyulan bütün vəzifələri uğurla yerinə yetirib.



İranla imzalanan anlaşma memorandumu ölkəmizin geostrateji müstəvidə növbəti diplomatik qələbəsidir

# İlham Əliyevin qlobal layihələri Avrasiyanın enerji və nəqliyyat xəritəsini dəyişdirir



Əvvəli 1-ci səh.

Əlaqələrin inkişafında qarşılıqlı sərmayələrin böyük rolu var. Hazırda 2050 İran şirkəti Azərbaycanda uğurla fəaliyyət göstərir.

Xatırlatmaq yerinə düşər ki, ötən il Azərbaycan İranla daha bir avtomobil yolunun reallaşdırılması istiqamətində danışıqlar aparıb və müsbət nəticə əldə edilib. Söhbət Azərbaycan, İran və Gürcüstanın birgə yaratdığı yeni tranzit marşrutundan gedir. Bu xətt İran, Azərbaycan və Gürcüstandan keçməklə Fars körfəzini Qara dənizə birləşdirir. Hətta 2021-ci il dekabrın 22-də İran-Azərbaycan-Gürcüstan nəqliyyat dəhlizi ilə ilk sınaq ekspedisiyası da həyata keçirilib. Bu yeni nəqliyyat dəhlizi Cənub-Şərqi Asiya və Avropa bazarlarına çıxış yolları yaratmaq üçün tikilib. Təbii ki, İran-Azərbaycan-Gürcüstan dəhlizinin açılması üç qonşu ölkənin iqtisadi və ticarət əlaqələrinin genişlənməsinə səbəb olub.

## Araz çayı üzərində ikisi avtomobil, ikisi isə dəmir yolu olmaqla dörd körpü salınacaq

Martın 11-də Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının 15-ci iclasının yekununda Azərbaycan və İran arasında iclasın protokolu, bir sıra ikitərəfli sənədlər və anlaşma memorandumu imzalanıb.

Memorandumun məqsədi Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə İran İslam Respublikasının ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikası arasında yeni dəmir yolu, avtomobil yolu əlaqəsinin, eləcə də rabitə və enerji təminatı xətlərinin yaradılmasından ibarətdir.

Bu məqsədə nail olmaq üçün Araz çayı üzərində ikisi avtomobil (piyada keçidi ilə) və ikisi dəmir yolu olmaqla ümumilikdə dörd körpünün, eləcə də rabitə və enerji təminatı infrastrukturunun tikintisi nəzərdə tutulur. Həmin körpülər Ermənistanın dövlət sərhədinə 5 kilometr məsafədə keçəcək.

Tərəflər ərazilərində gündə 500 ədəd giriş və 500 ədəd çıxış olmaqla, ən azı 1000 ədəd yük nəqliyyatı parkını (ixrac, idxal və tranzit malları) qəbul edə biləcək dövlət sərhədindən buraxılış məntəqəsinin tikilməsini öz öhdəsinə götürüb. Şərqi Zəngəzur iqtisadi rayonunu İranla birləşdirən avtomobil körpüsünün, eləcə də rabitə və enerji xətlərinin layihə sənədlərinin hazırlanması, tikintisi və bu tikintiyə nəzarət işləri üzrə bütün xərclər Azərbaycan tərəfindən ödəniləcək. İranı Naxçıvan MR-i Ordubad rayonu ilə birləşdirən avtomobil körpüsünün layihə sənədlərinin hazırlanması, tikintisi və tikintiyə nəzarət işləri üzrə bütün xərcləri İran tərəfi həyata keçirir. Körpülərin layihələndirilməsi və tikintisi üçün tərəflərin müvafiq qurumlarının nümayəndələrindən ibarət birgə işçi qrup yaradılacaq. Avtomobil yolu körpülərinin tikintisi başa çatana qədər tərəflər öz dövlətinin ərazisində avtomobil yollarının zəruri tikinti, genişləndirmə və yenidənqurma işlərini təmin edir, eyni zamanda avtomobil körpüsünə giriş yollarının tikintisini həyata keçirirlər. Avtomobil yoluna paralel olaraq tikiləcək dəmir yolunun maliyyələşdirilməsi və ödənilməsinə dair təkliflər 6 ay müddətinə hazırlanıb tərəflərin hökumətlərinə təqdim ediləcək.

## Ermənistan növbəti dəfə şansını itirərək mühüm geostrateji layihədən kənarda qaldı

Zəngəzur dəhlizi ilə açılacaq nəqliyyat və enerji xətlərinin texniki əsaslandırılması hazırlandı, lakin Ermənistan üzərinə götürdüyü öhdəliklərə zidd olaraq, onun reallaşmasını əngəlləmək məqsədilə müvafiq yer ayırmadı. Ermənistan rəhbərliyi elə zənn edirdi ki, belə bir kommunikasiya yalnız onun ərazisindən və onun icazəsi ilə yaradıla bilər. Ermənistan bu amili Azərbaycana qarşı təsir vasitəsi kimi istifadə etməyi, özündən asılı vəziyyətdə saxlamağı planlamışdı. İndi bütün bu cəhdlərin sabun köpüyü olduğunu aydın görən Ermənistan bir daha əsaslı şəkildə düşünməlidir - buna dəyərdimi?

44 günlük müharibə nəticəsində Azərbaycan öz ərazilərini geri qaytardı və dövlət sərhədlərini bərpa etdi. Bu amil Azərbaycanın növbəti diplomatik triumfuna yol açdı və ölkəmiz eyni coğrafiyada, Ermənistanın sərhədindən cəmi 5 kilometr aralıda - İran ərazisindən keçəcək yeni kommunikasiya bağlantısı yaratdı. Azərbaycan bununla öz planlarını reallaşdırdı, Ermənistan isə növbəti dəfə şansını itirərək mühüm geostrateji əhəmiyyətə malik olan layihədən kənarda qaldı. Yeni layihə böyük iqtisadi dividendlər gətirməklə yanaşı, həm də Naxçıvan MR-in blokadadan çıxmasında, muxtar respublikanın Azərbaycanın əsas hissəsi ilə etibarlı və davamlı bağlantısının yaradılmasında mühüm rol oynayacaq. Bu gün elektrik enerjisi ixracatçısı olan Azərbaycan İran ərazisindən keçməklə Naxçıvana, Türkiyəyə, daha geniş mənada Avropaya elektrik enerjisi ixrac etmək imkanı da qazanır. Bu layihənin gerçəkləşməsində İranla Azərbaycan arasında dostluq, yaxın qonşuluq münasibətlərinin olması mühüm rol oynadı. Memorandumun imzalanması Azərbaycanla İran arasında diplomatik münasbətlərin qurulmasının 30-cu ildönümünə təsadüf edir. Hazırda Rusiya ilə Ukrayna arasında hərbi əməliyyatların getdiyi və Rusiyaya qarşı ciddi sanksiyaların tətbiq edildiyi, bununla bağlı "Şərq-Qərb" nəqliyyat-tranzit dəhlizlərinin Rusiyadan keçən seqmentinin məhdudlaşdığı dövrdə İran ərazisindən keçəcək yeni kommunikasiya bağlantısı mühüm əhəmiyyətə və böyük perspektivə malikdir. Yeni iqtisadi layihənin gerçəkləşməsi tarixi hadisə, Azərbaycan diplomatiyasının mühüm qələbəsidir və ölkəmizin iqtisadi inkişafında böyük rol oynayacaq.

İran ərazisi vasitəsilə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan MR arasında yeni kommunikasiya bağlantılarının yaradılması layihəsi dar mənada Azərbaycanın əsas hissəsinin Naxçıvanla inteqrasiyasını təmin etmək olmasına baxmayaraq, geniş mənada regionun nəqliyyat-kommunikasiya xəritəsində strateji dəyişikliklərə səbəb olacaq layihə kimi qiymətləndirilir.

Sözügedən anlaşma memorandumu qeyri-müəyyən müddətə bağlanılıb. Ermənistan ilyarım ərzində Zəngəzur dəhlizinin yaradılmasına maneçilik törətdi, müxtəlif bəhanələrlə, qəsdən onu əngəlləməyə çalışdı. Baxmayaraq ki, bu dəhlizin yaradılması iqtisadi cəhətdən ciddi problemlər yaşayan Ermənistanın özü üçün olduqca mühüm əhəmiyyət kəsb edirdi.

"Şimal-Cənub" nəqliyyat dəhlizinin bir qolu olacaq yeni nəqliyyat yolunun işə salınması istiqamətində çox mühüm addımlar atılır və bu həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" istiqamətlərində əməkdaşlıq üçün gözəl zəmin yaradacaq. Əlbəttə ki, yeni dəhliz həm nəqliyyat, həm də elektrik enerjisi üçün önəmli bir beynəlxalq dəhliz olacaq.

## Diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünə mühüm töhfə

Azərbaycanla İran arasında əlamətdar tarix - diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə Prezident İlham Əliyevin martın 11-də bu ölkənin rəhbəri Seyid İbrahim Rəisiyə ünvanladığı məktubda da qeyd edildiyi kimi, dini və mədəni köklərlə bir-birinə bağlı olan xalqların iradəsi qarşılıqlı hörmət və mehriban qonşuluğa əsaslanan Azərbaycan-İran münasibətlərinin əsas təməlini təşkil edir.

Azərbaycan ilə İran arasındakı müntəzəm siyasi dialoqu və bir sıra sahələrdəki işbirliyini yüksək qiymətləndirən İlham Əliyev qeyd edib ki, bu gün qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün böyük perspektivlər var. Şübhəsiz, tarixi, əzəli torpaqlarımızın işğaldan azad olunması nəticəsində Azərbaycan-İran dövlət sərhədinin bərpası müxtəlif sahələrdəki mövcud potensialdan tam şəkildə yararlanmağa, nəqliyyat-kommunikasiya dəhlizlərinin gerçəkləşdirilməsində birgə iştiraka əlverişli şərait yaradıb. Bu baxımdan iki ölkə arasında imzalanan anlaşma memorandumunun xüsusi əhəmiyyəti var.

Prezident həmçinin vurğulayıb ki, xalqlarımızın mənafelərinə və ölkələrimizin maraqlarına xidmət edən Azərbaycan-İran münasibətləri bundan sonra da birgə səylərlə uğurla inkişaf edəcək və möhkəmlənəcək.

Göründüyü kimi, Azərbaycan regionda sabitləşdirici aktor kimi fəaliyyət göstərməklə bölgədə və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir. Buna görə də ölkəmiz hazırda regional güc mərkəzi kimi sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli və etibarlı tərəfdaş hesab edilir. Azərbaycan konstruktiv, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, regional və qlobal miqyasda sabitliyə xidmət edən siyasi xətt yürüdür. Məhz bu səbəbdən də dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Avropaya qaz nəqlinin artırılması yenə də gündəmdədir

## Bu məsələ Azərbaycan və Türkiyə dövlət başçılarının Ankara görüşündə bir daha müzakirə olundu



Əvvəli 1-ci səh.

Energetika Nazirliyi bu məlumatında həmçinin bildirir ki, hasilatda ötən ilin müvafiq dövrünə nisbətən 12,9 faiz artım müşahidə olunub.

Məlum olduğu kimi, AÇG blokundan neftlə yanaşı, səmt qazı da çıxarılır. Həmin mavi yanacaq Azərbaycan dövlətinə əsasən Səngəçal terminalından, həmçinin Neft Daşlarındakı qurğu vasitəsilə təhvil verilir. Qazın qalan hissəsi layların təzyiqini saxlamaq məqsədilə yenidən kollektora vurulur. İstismara verildiyi vaxtdan cari il fevralın 1-dək "Azəri-Çıraq-Günəşli"dən 191 milyard kubmetrdən çox qaz alınıb.

"Şahdəniz"dən isə indiyədək 160 milyard kubmetrə yaxın qaz hasil olunub. Hazırda yataqda "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformaları fəaliyyət göstərir. Layihənin əməliyyatçısı olan bp şirkətinin məlumatına görə, mövcud "Şahdəniz" qurğularının hasilat gücü gündə təxminən 72 milyon (ildə 26 milyarddan artıq) standart kubmetrdir.

Cari ilin yanvar-fevral aylarında Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) "Şahdəniz" yatağı üzrə təbii qaz və kondensat satışından əldə etdiyi gəlirlər 227 milyon 557 min dollar olub. Bu barədə ARDNF-dən bildirilib. Qeyd olunub ki, o cümlədən iki ayda fondun "Şahdəniz" yatağı üzrə kondensatın satışından gəlirləri 22 milyon 172 min dollar təşkil edib.

2007-ci ildən cari il martın 1-dək ARDNF-nin "Şahdəniz" yatağı üzrə qazın və kondensatın satışından ümumi gəlirləri 4 milyard 779 milyon dollar olub.

Bu il yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev il ərzində Azərbaycanda 45 milyard kubmetr qazın hasil ediləcəyini, bunun 19 milyard kubmetrinin ixraca gedəcəyini, qalan hissəsinin isə daxili tələbata və lay təzyiqini saxlamaq üçün yataqlarda yenidən neft laylarına vurulacağını deyib: "Bu, böyük həcmdir və əlbəttə, bizə imkan verəcək ki, həm öz tələbatımızı ödəyək, eyni zamanda Avropa məkanına daha böyük həcmlə çıxa bilək. Məhz bizim bu layihəmiz eyni zamanda Avropa ölkələri arasındakı interkonnektorların, bağlantıların tikintisinə də rəvac verdi və indi orada bu sahədə də işlər görülür. Beləliklə, fiziki olaraq, yəni infrastruktur nöqteyi-nəzərindən biz qazımızı başqa ölkələrə də çatdıra bilərik, nəzərə alsaq ki, "Şahdəniz"in çox böyük potensialı var. Bunun, düzdür, təsdiq edilmiş həcmi 1 trilyon kubmetrdən çoxdur".

Beləliklə, ölkəmiz özünü mavi yanacaqla təmin etməklə yanaşı, onu həmçinin Gürcüstandakı, Türkiyədəki və Avropadakı istehlakçılara da göndərir.

Azərbaycanın illik qaz istehlakının 13 milyard kubmetr olduğu nəzərə alınarsa, ölkədə daxili tələbatın təqribən 30 faizi nisbətində təbii qaz saxlama tutumu mövcuddur. SOCAR-dan verilən məlumata görə, Azərbaycanda iki yeraltı qaz anbarı (Qalmaz və Qaradağ) var və onların ümumi həcmi 3,5 milyard kubmetrə bərabərdir. Məlumatda göstərilir ki, dünyada təbii qaza tələbatın kəskin artdığı bir dövrdə yeraltı qaz anbarlarının strateji əhəmiyyəti bir daha ortaya çıxır. Azərbaycan qaz anbarlarının həcminə görə bir sıra Avropa ölkələrini üstələyir. Hazırda ölkəmizdə yeraltı qaz anbarlarının həcminin 5 milyard kubmetrə çatdırılması istiqamətində işlər aparılır.

Azərbaycan qazının ixracı da uğurla davam edir. Yanvar ayında xaricə qaz satışı 2 milyard kubmetr təşkil edib. Energetika Nazirliyindən bildirilib ki, Türkiyəyə 0,8 milyard kubmetr, Avropaya 0,8 milyard kubmetr, Gürcüstana isə 0,4 milyard kubmetr qaz ixrac olunub. Türkiyəyə TANAP-la (Trans-Anadolu Qaz Boru Kəməri) bu müddətdə 0,5 milyard kubmetrdən çox qaz nəql edilib.

Qeyd edək ki, "Şahdəniz" yatağı istismara veriləndən bu il fevralın 1-dək hasil edilən 160 milyard kubmetrə yaxın qazın 110 milyard kubmetrə yaxın həcmi ixraca yönəldilib.

Gürcüstandakı istehlakçılar Azərbaycandan mavi yanacağı əsasən Cənubi Qafqaz Boru Kəməri (CQBK) vasitəsilə 2006-cı ildən alırlar. CQBK-ya qoşulan 280 kilometrlik xətt bütövlükdə Bakı-Tbilisi-Ərzurum (BTƏ) kəmərini yaradır. Başlanğıcını Səngəçaldan götürən bu kəmər qazı Türkiyəyə 2007-ci ilin iyulundan çatdırır. TANAP isə 2018-ci ilin iyununda fəaliyyətə başlayıb.

2020-ci il dekabrın 31-dən "Cənub qaz dəhlizi"nin son seqmenti olan Trans-Adriatik Qaz Boru Kəməri - TAP da işə düşüb və həmin vaxtdan Azərbaycandan Avropaya mavi yanacaq ixrac edir.

Xatırladaq ki, keçən il və bu ilin yanvar ayında "Cənub qaz dəhlizi" vasitəsilə Gürcüstan, Türkiyə və Avropa istehlakçılarına 18,5 milyard kubmetrdən çox mavi yanacaq çatdırılıb. Təkcə Avropa ölkələri 8,9 milyard kubmetr Azərbaycan təbii qazı ilə təchiz olunub. Enerji böhranının tüğyan etdiyi bir vaxtda "Cənub qaz dəhlizi"nin nüfuzu və əhəmiyyəti daha da artıb. Təşəbbüskarı və aparıcı qüvvəsi Azərbaycan olan bu möhtəşəm layihə ilə bağlı inam və perspektivlər də məhz onun uğurlu fəaliyyətindən irəli gəlir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Dünya iqtisadiyyatı yeni sınaq qarşısında

## Azərbaycanın bu sınaqdan da itkisiz çıxmaq imkanları genişdir

İki il yarımdır ki, dünya ciddi sınaqla üzüzədir. Koronavirus pandemiyasının fəsadları təzə-təzə sengiməyə başlamışdır ki, indi də Rusiya-Ukrayna qarşıdurması qlobal fəlakətə çevrilib.



İki ölkə arasında müharibənin ilk günündən dünya bazarında neft və qazın qiymətləri sürətlə artmağa başlayıb. Hazırda dünya bazarında neftin bir bareli 110-130 dollara satılır. Ümumiyyətlə, son bir ayda dünya bazarında neft 40 faizdən çox bahalaşıb. Təbii qazın Avropada gündəlik satışı da iki dəfə bahalaşaraq 3 min dollara çatmışdı.

Rusiya dünya bazarına ən çox neft və qaz ixrac edən ölkələrdəndir. Təkcə Avropanın istehlak etdiyi qazın 40 faizi Rusiyadan idxal olunur. Məlumdur ki, enerji daşıyıcılarının bahalaşması iqtisadiyyatın bütün sahələrində istehsal olunan mal və xidmətlərin qiymətlərinə də təsir edir. Bununla zəncirvari bahalaşma meydana gəlir ki, bu da sonda insanların sosial rifahına mənfi təsir göstərir.

Rusiya-Ukrayna savaşı dünyada onsuz da baha olan ərzaq məhsullarının qiymətinin daha da artmasına səbəb olur. Bu iki ölkə dünya bazarında buğda ixracında 30, arpa ixracında 31, günəbaxan yağının ixracında 32 faiz paya malikdir. Ötən il Ukrayna buğda ixracından 12,3 milyard dollar qazanc əldə edib. Bu ölkənin əsas alıcıları Çin, Misir, Türkiyə, İndoneziya, İspaniya, Niderland, İran, Pakistan, Liviya və Tunisdir. Ukraynadan taxıl idxal edənlərin əksəriyyəti əhalisi çox olan ölkələrdir. Bu o deməkdir ki, milyonlarla insanın buğda ilə - çörəklə təminatında problem yaranacaq. Rusiya-Ukrayna müharibəsinin nə vaxt qurtaracağı isə hələ heç kəsə məlum deyil. "Ukrayna əkdiyi taxılı biçə biləcəkmi?" sualına da hələlik cavab verə bilən yoxdur. Onu da qeyd edək ki, keçən il Ukraynada buğda istehsalı 30,4 faiz artmışdır. Bu, dünya bazarına daha çox məhsul ixrac edilməsi deməkdir. Cari ildə isə belə bir imkanın olacağı inandırıcı deyil.

Rusiya dünya bazarına buğda ixracında Ukraynadan üstün mövqedədir. Belə ki, bu ölkənin taxıl ixracı 27,4, o cümlədən buğda ixracı 22,4 milyon tondur. Rusiyaya tətbiq edilən sanksiyalar bu ölkədən taxıl ixracının kəskin şəkildə azalmasına səbəb olacaq. Avropa ölkələri Rusiya gəmilərinə öz limanlarına girişə qadağa qoyub. Bununla yanaşı, Qara və Azov dənizləri hərbi münaqişə zonasına daxil olduğu üçün mülki gəmilərin burada hərəkəti dayandırılıb. Belə olan halda Rusiya istəsə belə taxıl ixracını həyata keçirə bilməyəcək. Yaranan vəziyyət sayəsində dünya bazarında qıtlıq yaranacaq ki, bu da sonda taxılın qiymətinin daha da bahalaşmasına gətirib çıxaracaq.

Rusiya hələ ötən il ixrac olunan buğdaya görə rüsumu 100 dollar artırmışdı. Bu ölkə öz ərzaq təhlükəsizliyini möhkəmləndirmək üçün bir sıra məhsulların ixracını da məhdudlaşdırmışdı. Bu qadağa cari il dekabrın 31-dək qüvvədə qalmalı idi. Belə ki, taxıl ixracına da məhdudiyyətlərin qoyulması gözlənilən idi.

Birləşmiş Millətlər Təşkilatının Kənd Təsərrüfatı və Ərzaq Təşkilatının (FAO) açıqladığı hesabata görə, cari ilin fevral ayında qlobal ərzaq qiymətləri indeksi yanvarla müqayisədə 3,9 faiz artıb. Ötən ilin eyni dövrü ilə müqayisədə 24,1 faiz bahalaşma baş verib. Bu dövrdə buğdanın qiyməti 2,1, qarğıdalının qiyməti 5,1, ümumilikdə dənli bitkilərin qiyməti 3 faiz bahalaşıb. FAO-nun məlumatına görə, bahalaşmanın əsas səbəbi sözügedən iki ölkə arasında yaranan münaqişədir.

Məlum məsələdir ki, bu vəziyyətdən yararlanan ölkələr də olacaq. Belə ki, bazarda yaranan tələbatı ödəmək üçün taxıl ixracatçıları hərəkətə keçəcəklər. Məsələn, Çin Ukraynadan ötən il 2,55 milyard dollarlıq taxıl idxal edib. Hazırda dünyada mövcud olan taxıl ehtiyatının 50 faizi bu ölkədədir. Çin bu imkandan istifadə edib öz taxıl ehtiyatının müəyyən hissəsini sata da bilər. Hindistan isə son illər buğda istehsalını artırıb. Sözsüz ki, istehsalın artması ixracın genişləndirilməsinə imkan yaradır. Cari il martın 31-dək bu ölkə dünya bazarına 7 milyon ton buğda ixrac etməyi proqnozlaşdırıb. Eyni zamanda 2021-2022-ci illərdə yüksək səviyyədə buğda yetişdirən Avropa İttifaqı ölkələri, Avstraliya və Argentina da dünya bazarına 10 milyon tona yaxın taxıl çıxarmaq imkanına malikdir.

Azərbaycanın buğdaya olan illik tələbatı təqribən 3,3-3,4 milyon tondur. Ölkəmizin istehsal imkanları isə ildə 2 milyon ton təşkil edir. Bunun da səbəbi əkin sahələrinin məhdudluğu ilə yanaşı, məhsuldarlığın aşağı olmasıdır. Odur ki, buğda istehsalını artırmaq üçün mütləq məhsuldarlığı yüksəltməliyik.

Ümumiyyətlə, dünyada əhalinin sürətlə artması, taxılın idxal-ixracında yaşanan problemlər hər bir ölkəni ehtiyatlı olmağa məcbur edir. Çünki hər bir dövlət üçün ərzaq təhlükəsizliyi önəm daşıyır. Görünən odur ki, dünya bazarında enerji daşıyıcıları ilə yanaşı, kənd təsərrüfatı məhsullarının qiyməti də artacaq. Bu iki amil dünya iqtisadiyyatında yeni təlatümlərin meydana gəlməsinə səbəb ola bilər. Ölkəmizin bu təlatümlərdən sığortalanması, xüsusən taxıl idxalından asılılığını minimuma endirmək üçün yeganə çıxış yolu imkan daxilində əkin sahələrini genişləndirməklə yanaşı, məhsuldarlığı artırmaqdır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# REGİONLAR



## Barama subsidiyası və yaş baramanın fermerlərdən alış qiyməti artırılıb

Qaxda "Barama-2022: Qarşıda duran vəzifələr" mövzusunda respublika müşavirəsi keçirilib.

Heydər Əliyev Mərkəzində keçirilən müşavirədə Kənd Təsərrüfatı Nazirliyinin nümayəndələri, müxtəlif rayonların icra hakimiyyəti strukturlarının məsul şəxsləri, "Azərbaycan Sənaye Korporasiyası" ASC-nin nümayəndələri, nazirliyin tabeli qurumlarının və Dövlət Aqrar İnkişaf Mərkəzlərinin rəhbərləri, Elmi-Tədqiqat İnstitutlarının nümayəndələri, barama istehsalı ilə məşğul olan 50-yaxın kümçü iştirak ediblər.

Kənd təsərrüfatı naziri İnam Kərimov müşavirədə çıxış edərək qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən aqrar sahənin inkişafı prioritet istiqamət kimi elan edilib: "Azərbaycanda baramaçılığın və ipəkçiliyin zəngin tarixi ənənələri və böyük potensialı var. Bu sahənin inkişaf etdirilməsi qarşımızda duran əsas vəzifələrdən biridir. Əsas məqsədimiz bu ənənəni bərpa etmək və bu sahədə məhsuldarlığı daha da artırmaqdır. Ölkəmizdə barama istehsalı ilə məşğul olan kümçülərə çoxşaxəli dövlət dəstəyi tədbirləri həyata keçirilir. Cənab Prezidentin imzaladığı Fərmana əsasən, bu ildən tədarük məntəqələrinə təhvil verilən yaş baramanın hər kiloqramına görə subsidiyanın məbləği 1 manat artırılaraq 6 manata çatdırılıb. Bundan başqa, Kənd Təsərrüfatı Nazirliyinin müraciəti əsasında "Azəripək" MMC təhvil alınan baramanın qiymətini 4 manatdan 5 manata qaldırıb. Bununla da cari mövsümdə kümçülər tədarük etdikləri yaş baramanın hər kiloqramına görə 9 deyil, 11 manat vəsait alacaqlar".

Nazir bu il barama mövsümünə hazırlıq və qarşıda duran vəzifələr, baramaçılığın inkişafı, hədəflər və perspektivlər, eləcə də kənd təsərrüfatının inkişafı istiqamətində görülən işlər, qarşıda duran vəzifələr barədə fermerləri məlumatlandırıb.

Daha sonra müşavirədə Kənd Təsərrüfatı Nazirliyi Aparatının, aidiyyəti strukturların rəhbərləri, Barama Şurasının üzvləri, müxtəlif rayonlardan olan kümçülər ölkədə baramaçılığın inkişafı ilə bağlı fikirlərini bölüşüblər. Müşavirədə tut tingləri ilə təminat, hibrid ipəkqurdu toxumçuluğunun inkişaf istiqamətləri, inkubasiyanın təşkili, modul kümxanaların yaradılması məsələləri ətrafında fikir mübadiləsi aparılıb, kümçüləri maraqlandıran suallar cavablandırılıb, irəli sürülən təkliflər qeydə alınıb.

## Əkin sahələri Qarabağdan gələn su ilə suvarılır



**Ağdamda əkin sahələri işğaldan azad edilən su mənbələri vasitəsilə suvarılacaq. Bunun üçün aidiyyəti qurumlar tərəfindən hazırlıq prosesi gedir.**

"Trend" xəbər agentliyi bildirir ki, 44 günlük Vətən müharibəsinə kimi Ağdamın bizdə olan ərazilərində əkin sahələrinin suvarılması prosesi uzun vaxt aparırdı. Belə ki, Xaçınçay və Ağdamkənd su anbarları düşmənin nəzarəti altında olduğundan suların qarşısı kəsilmişdi. Bu da məhsuldarlığa öz mənfi təsirini göstərirdi. İllərdir fermer kimi fəaliyyət göstərən müsahibimiz bildirir ki, işğal müddətində fermerlər öz əkin torpaqlarını artezian quyuları vasitəsilə suvarıb.

"Trend"in Qarabağ bürosunun çəkiliş qrupu Ağdamdakı əkin sahələrində aparılan işlərlə tanış olub, fermerlərlə söhbətləşib. Hazırda bu problem aradan qaldırılır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz torpaqlarımızı işğaldan azad etdikdən sonra həmin ərazilərdəki su mənbələrindən istifadə artıq fermerlərin də işini asanlaşdırıb. Fermerlər suvarma işinin təşkili üçün aparılan sürətli işlərə görə Prezident İlham Əliyevə təşəkkür ediblər.

İndi fermerlər əkin sahələrini vaxtlı-vaxtında suvarmaqla yanaşı, həm də yüksək məhsuldarlıq əldə edə biləcəklər. Fermerlər "Trend"-in çəkiliş qrupuna bildiriblər ki, işğaldan azad edilən ərazilərdə su mənbələrindəki suyun tərkibinin mineral maddələrlə zəngin olması əkin prosesində yüksək məhsuldarlığın əldə olunmasına şərait yaradacaq.

Hazırda Ağdam Mexaniki Suvarma İdarəsi 35 min 400 hektar kənd təsərrüfatı bitkilərinin suvarılmasına və eləcə də 75 min nəfər əhalinin içməli və məişət suyu ilə təmin olunmasına xidmət edir.

Hazırda idarənin balansında 986 subartezian quyusu, 4 nasos stansiya, 4 suyığıcı göl, 192 hidrotexniki qurğu və 365 kilometr suvarma kanalları mövcuddur. Həmin subartezian quyuları 120, 65, 40 kub həcmində su verən quyulardır. Müsahibimiz deyir ki, illər öncə həmin subartezian quyularının məhsuldarlığı çox olub. Lakin torpaqlarımız işğal altına düşdüyündən, mənfur düşmənlərimiz torpaqlarımız kimi, su mənbələrimizi də işğalda saxladığından sonralar ciddi problemlər üzə çıxıb.

Hazırda sözügedən su mənbələri minalardan təmizlənir. Bu il həmin su mənbələrindən əkin prosesində istifadə olunacağı planlaşdırılır. Görülən işlər bununla bitmir. İşlək vəziyyətdə olan və ya azad olunmuş ərazilərdəki bərpa olunacaq artezian quyularında müasir avadanlıqlar quraşdırılacaq. Bu sahədə artıq işlərə start verilib. Xatırladaq ki, bu günə kimi Ağdam Mexaniki Suvarma İdarəsi rayon ərazisində olan 35 min 400 hektarda kənd təsərrüfatı bitkilərini subartezian quyuları və nasos stansiyaları vasitəsilə su ilə təmin edib. Qeyd edək ki, hazırda Ağdamda pambıq səpininə hazırlıq prosesi gedir, arat aparılır.

## Quraqlıqdır, suyun hər kubmetrindən səmərəli istifadə edilməlidir

### Bu yöndə Hacıqabulda ardıcıl tədbirlər görülür



**Hər kəsə məlumdur ki, dünyada gedən iqlim dəyişmələri, qlobal istiləşmə ətraf mühitə öz təsirini göstərməkdədir. Bir sıra ölkələrdə yağış, sel suları şəhər və kəndləri, əkin sahələrini çənginə alıb fəsadlar törədərkən planetin digər yerlərində quraqlıq hökm sürür.**

Bunu ölkəmizdə də görmək olar. Aran yağışa həsrətdir. Yalnız yanvar ayının ortalarında bir neçə saat qar və bundan sonrakı müddətdə iki dəfə çiləmə yağış yağmışdır. Bu, normadan aşağı yağıntı göstəricisidir və bitkilərin köklərini belə islatmağa kifayət etmir. Artıq martın ilk ongünlüyü geridə qalmışdır. Bu ay da hələlik quraqlıq keçir, Kür və Araz çaylarında su yoxdur. Xəzər dənizinin suyunun aşağı axarlarda Kürə girməsi nəticəsində Neftçala və Salyan rayonlarının əhalisi içməli su sarıdan problemlə üzləşib. Su olmadığından çay sahilində qurulmuş su nasosları da işləmir.

Hacıqabul rayonunda da oxşar vəziyyət yaranmışdır. Qeyd edək ki, rayon ərazisində 20 min 656 hektar əkin sahəsi var ki, bunun da 18 min 456 hektarı əkin altındadır. Keçən ilin payızında 12 min 121 hektara taxıl əkilmişdir. Onun 6 min 922 hektarı buğda, 5 min 199 hektarı arpa sahələridir. Qəsəbə və kəndlərin ərazisində 1920 hektar yoncalıq da mövcuddur. Əkinlərin suvarılma mənbəyi üzərində 8 nasos stansiyası qurulmuş Kür çayı, öz axını ilə gələn Yuxarı Şirvan kanalı, Pirsaatçay Su Anbarı və "Cənub" Elektrik Stansiyası istiqamətindən gələrək üzərində 2 su nasosu quraşdırılan Atdı kanalıdır. Pirsaatçay su anbarı istisna olmaqla, həmin mənbələrdən hazırda ümumi tələbat üçün saniyədə 11 kubmetr əvəzinə 7,7 kubmetr su götürülür. Digər bir su mənbəyi olan Pirsaatçay su anbarı isə boşdur. Xatırladaq ki, bu anbar Qubalıbaloğlan, Rəncbər, Navahı, Qızılburun, Atbulaq, Kürçülü kəndləri, habelə Pirsaat və Navahı qəsəbələrinin ərazisindəki 7 min 300 hektar əkin sahəsini suvarmaq məqsədilə 1964-cü ildə tikilib istifadəyə verilmişdir. O vaxtdan çox illər keçmişdir. Şamaxı istiqamətindən gələn lilli sel suları anbara yığılaraq, çöküntü vermiş, onu dayazlaşdıraraq xeyli kiçiltmişdir. Mütəxəssislərin dediyinə görə, anbarın su tutumu 16,9 milyon kubmetr olmuşdur. Hazırda bu rəqəm 1,8 milyon kubmetrdir. Lillənmənin dərinliyi isə 15 metrə çatmışdır. Yağıntıların az düşməsi ucbatından anbar indi tamam boşdur.

Yaranan vəziyyətin aradan qaldırılması üçün mövcud imkanları götür-qoy etmək, daha münasib, operativ qərar qəbul etmək vaxtı çatmışdır. Bu məqsədlə Hacıqabul Rayon Suvarma Sistemləri İdarəsinin rəhbərliyi Navahı zonası kəndlərində ictimaiyyət nümayəndələri ilə görüşlər keçirmiş, müzakirələr aparmışdır. Əhalinin çoxsaylı müraciətləri, habelə yerli ərazi nümayəndəliklərinin, bələdiyyələrin, kənd ağsaqqallarının təklifləri əsasında suvarma qrafiki tərtib olunmuşdur. Qrafikə əsasən, sol sahil Navahı nasos stansiyası ilə əraziyə qaldırılan suyun Navahı qəsəbəsi, Atbulaq, Navahı və Qızılburun kəndləri ərazisinə verilməsi nəzərdə tutulmuşdur. Qrafiklər əsasında kəndlərdəki əkinlərin su təminatı üçün əlavə enerji limitinə zərurət yaranması barədə Meliorasiya və Su Təsərrüfatı ASC rəhbərliyinə məlumat verilmişdir. ASC məsələni müsbət həll edərək enerji limitini artırmışdır. Nəticədə sol sahil Navahı nasos stansiyası keçən ilin oktyabr ayından bəri fasiləsiz işləyir. Ərazidəki kəndlər üzrə 3 min 30 hektar taxıl sahəsinin suvarılması davam etdirilir. Navahı qəsəbəsi, Atbulaq və Qızılburun kəndləri üzrə 900, Navahı kəndi üzrə 1421 hektardan çox taxıl sahəsi suvarılmışdır. Hazırda ərazidə qalan 700 hektara yaxın əkin sahəsi suvarılır.

Fermer Şükür Tapdıqov bildirdi ki, əkdiyi 30 hektar taxıl əkininin 26 hektarına su vermişdir. Qalan 4 hektarını da 3-4 günə suvaracaq. Torpaq mülkiyyətçilərindən Mütəllim Zeynalov, Azər Qaçayev də yaradılan şəraitdən razıdırlar: "Bu il əvvəlki illərlə müqayisədə çox böyük dönüş var. Hamı öz növbəsinin vaxtını, kimdən sonra su götürəcəyi günü dəqiq bilir. Buna görə də kənd camaatı arasında heç bir narazılıq yoxdur. Su idarəsinin işçiləri, kənd nümayəndəsi, bələdiyyə üzvləri tez-tez bizimlə görüşüb ətraflı söhbət aparır, su itkisinə yol verməməyi tapşırırlar".

Lakin bunlarla yanaşı, haqqı nahaqqa verənlər də var. Belələri vaxtaşırı olaraq yuxarı instansiyalara müraciət etməyi, necə deyərlər, özlərinə peşə seçmişlər. Navahı kənd inzibati ərazi nümayəndəsi Mail Tapdıqov dedi ki, biri var, Bakıda yaşayır: "Torpaq ucuz qiymətə olanda bizim kəndin ərazisindən pulla xeyli torpaq sahəsi alıb. Paxılı deyilik, sağlığına qismət olsun, xeyrini görsün. Lakin su ilə əlaqədar həmişə şikayətçidir. Yazmadığı yer qalmayıb. Dediyi də odur ki, nə növbəfilan, əkinlərimi birinci olaraq mən suvarmalıyam. Başqaları necə olursa-olsun, mənə dəxli yoxdur. Əkdiyi 26,6 hektar taxıl sahəsinin 15 hektarını suvarıb. Bir neçə gün bundan qabaq su idarəsinin Navahı və Pirsaat üzrə suvarma sahəsinin rəisi Bəşir Məmmədov telefonla ona zəng edib dedi ki, sənin sahənə su verirlər, gəl suvar. Bu günə kimi gəlib çıxmayıb. Suçu da onun işini görmək istəmir. Çünki pulunu vaxtında vermir".

Su qıtlığı ilə bağlı yaranan problemləri yaxşı bilirik. Onu da bilirik ki, Hacıqabul Suvarma Sistemləri İdarəsinin kollektivi yaranan gərginliyin aradan qaldırılması üçün tədbirlər görür. İdarə olan suyun ədalətli bölüşdürülməsi üçün tərtib olunan qrafiki rayondakı DAİM ilə birlikdə internet portalına yerləşdirmişdir.

Onu da qeyd edək ki, su qıtlığı üzündən bu il rayonda pambıq əkini sual altındadır. Yonca heyvandarlıq üçün başlıca yem bazasıdır. 1920 hektar yoncalığın indiyədək yalnız 771 hektarına birinci su verilib. İnsanlar isə ümidlərini üzməyiblər. İnanırlar ki, böyük Yaradan öz bəndələrini heç vaxt çarəsiz qoymayıb. Yaz yağışı yenə də yağaraq çöllərə, düzlərə, əkinlərə can verəcəkdir. Zəmilər dirçələcək, bir ayda altı qarış boy atacaqdır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Gəncə Dövlət Dram Teatrının yeni binasında ilk tamaşa nümayiş etdirilmişdir

Milli Teatr Günü münasibəti ilə Gəncə Dövlət Dram Teatrının yeni binasında "Cavad xan" tarixi dramı nümayiş etdirilmişdir.

Tamaşadan əvvəl Gəncə Dövlət Dram Teatrının yeni binasına, eləcə də teatrın muzeyinə baxış keçirilmişdir. Qeyd edilmişdir ki, 2014-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə təməli qoyulan Gəncə Dövlət Dram Teatrının yeni binasında 478 yerlik böyük tamaşaçı zalı, 22 yerlik lojalar və 120 yerlik kiçik tamaşaçı zalı var. Yeddimərtəbəli binada həmçinin iki zaldan, 135 eksponat və rəsm əsərlərindən ibarət Gəncə Teatr Muzeyi, zəngin kitabxana, xoreoqrafiya zalı, qrim otaqları, mehmanxana, kafe və digər zəruri infrastruktur yaradılıb. Teatrın yeni binasında tamaşaların nümayişi üçün müasir texniki şərait təmin edilib, yaradıcı heyətin məşqləri ilə bağlı bütün məqamlar nəzərə alınıb.



Sonra "Cavad xan" tarixi dramı nümayiş olunub. Tamaşa Gəncənin sonuncu xanı Cavad xanın yurduna olan bağlılığından, Gəncənin tarixindəki xidmətlərindən, azadlıq uğrunda işğalçılara qarşı apardığı mübarizədən bəhs edir.

Əsərin müəllifi yazıçı-jurnalist Nüşabə Əsəd Məmmədlidir. Tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Əsgər Əsgərov, rejissoru Elşad Əhmədov, quruluşçu rəssamı Mirzə Mehdi, musiqi tərtibatı Sevda Əliyeva, rejissor assistenti Nişanə Qurbanovadır. Baş rollarda Xalq artisti Pərvanə Qurbanova və Əməkdar artist Elxan Yunis, həmçinin Əməkdar artistlər İlham Hüseynov, Ramiz Vəliyev, Novruz Cəfərov, Salamulla İsmayılov, aktyorlar Yusif Cəfərov, Samir Abbasov, Murad Meyfəliyev, Şahmar Məmmədov və başqaları çıxış ediblər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Fermerlərə güzəştli şərtlərlə satılan müasir texnika və avadanlıqlar məhsuldarlığı artırmağa imkan verir



Məlumdur ki, dünyada ötən əsrin sonlarından aqrar sektorda yeni texnika və texnologiyaların tətbiqinə geniş yer verilir. Hazırda kənd təsərrüfatında sənayeləşmə daha da sürətlənib.

Bu sahədə yüksək texnologiyalardan və keyfiyyətli toxumdan istifadə edən ölkələr də yüksək məhsul əldə etməyə nail olublar. Bu gün aqrar sektorda innovativ üsullardan istifadə etməklə "az ərazidən yüksək məhsul" əldə etmək prinsipi önə çıxıb.

Azərbaycanda da son dövrlər bu sahəyə xüsusi diqqət yetirilir. Fermerlərin yeni texnika və texnologiyalarla təmin olunması üçün dövlət büdcəsindən külli miqdarda vəsait ayrılır. Bu maliyyə hesabına alınan texnika və texnologiyalar güzəştli qiymətlərlə fermerlərə satılır və ya icarəyə verilir. Hazırda Azərbaycanda əkin sahələrində dünyanın inkişaf etmiş ölkələrinin qabaqcıl texnika və texnologiyalarından istifadənin şahidi oluruq.

Bu günlər "Aqroservis" fermerlərin müasir texnikaya olan tələbatını ödəmək üçün ASC-nin Xaçmaz Regional Nümayəndəliyində satışlara başlayıb. Şimal bölgəsində yeni bir satış mərkəzinin açılması burada fəaliyyət göstərən fermerlərin işini asanlaşdırır. Belə ki, şimal regionunun fermerləri artıq uzaq məsafə qət edib belə texnikaların alınmasına əlavə vaxt sərf etməyəcəklər.

Məlumdur ki, dövlət aqrar sektorda fəaliyyət göstərən sahibkarlara böyük güzəştlər edir. Xaçmaz Satış Mərkəzində nümayiş edilən texnikalar bazar qiymətindən 10 faiz aşağı qiymətə fermerlərə təklif olunur. Bununla yanaşı, "açıq qapı" günündə xüsusi olaraq bir sıra texnika növləri əlavə 5 faiz endirimlə, yeni bazar dəyərindən 15 faiz aşağı qiymətə satılır. Həmçinin müxtəlif aqreqatların alışı zamanı da fermerlərə müəyyən güzəştlər edilir. Belə ki, həmin aqreqatları alan fermerlərə 2 illik zəmanət, 1 illik texniki baxış, 1 illik "AqroUber" mobil platformasından ödənişsiz istifadə imkanı, həmçinin çatdırma, quraşdırma və texnikadan istifadə qaydalarına dair təlimat da pulsuz həyata keçirilir.

Bölgənin fermerləri dövlət tərəfindən onlara edilən güzəştləri yüksək qiymətləndirirlər. Bildirirlər ki, onların böyük ehtiyacı olduqları kənd təsərrüfatı texnikalarının və aqreqatların güzəştli qiymətlərlə satılması daha çox məhsul istehsalına imkan yaradacaq. Verilən güzəştlərdən istifadə edən şimal bölgəsinin fermerləri bu satış yarmarkadan müxtəlif sayda aqreqat, mala, beşkorpuslu kotan, hidravlik otbiçən, gübrəsəpən, ot-küləş presləyən, rotorlu otbiçən, ot dırmığı və "Belarus" markalı traktor alıblar.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## İlisu kəndində qarın qalınlığı 40 santimetrə çatır

**Martın 12-si gecə saatlarından başlayaraq Azərbaycanın şimal-qərb bölgəsinə güclü qar yağıb. Havanın temperaturu xeyli aşağı düşüb.**

AZƏRTAC xəbər verir ki, Qax rayonunun dağlıq və dağətəyi ərazilərinə, eləcə də Qax şəhərinə daha çox qar yağıb. Hazırda İlisu kəndində qarın qalınlığı 40, Qax şəhərində isə 10 santimetrədək təşkil edir.

Havaların qeyri-sabit, qarlı keçməsi ilə əlaqədar Qax rayonunun yol təsərrüfatının işçiləri gücləndirilmiş iş rejimində fəaliyyət göstərirlər. Qax-İlisu, Qax-Qaşqaçay-Armudlu, Qax-Şəki, Qorağan-Qax-Zaqatala avtomobil yollarında nəqliyyatın fasiləsiz hərəkətinin təmin olunması üçün Avtomobil Yolları Dövlət Agentliyinin 13 nömrəli "Yol İstismar" MMC tərəfindən lazımi tədbirlər görülüb. Avtomobil yolları texnikanın köməyi ilə qardan təmizlənib, yollara duz-qum qarışığı səpilib. Görülmüş tədbirlər nəticəsində həmin istiqamətlərdə nəqliyyatın hərəkətində heç bir çətinlik yaranmayıb.



## Naxçıvanda özünüməşğulluq proqramı çərçivəsində növbəti aktivlər təqdim olunub

Muxtar respublikada həyata keçirilən uğurlu özünüməşğulluq proqramı çərçivəsində növbəti aktivlər təqdim olunub.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, özünüməşğulluq proqramının bu mərhələsində 14 ailənin hər birinə 2 baş qaramal, 9 ailənin hər birinə 20 baş davar, 2 ailəyə mini yerşumlayan aqreqat, 2 ailəyə otbiçən aqreqat, 2 ailəyə qaynaqçı avadanlıqları və ləvazimatları, 1 ailəyə isə təmir-tikinti alət və ləvazimatları verilib. Özünüməşğulluğu təmin edilmiş ailələrin üzvlərindən 11 nəfərini əlilliyi olan, 1 nəfərini cəzaçəkmə müəssisəsindən azad olunan, 1 nəfərini ailə başçısını itirən şəxs, 3 nəfərini müharibə veteranı, 3-ünü isə şəhid ailəsi üzvləri olan şəxslər təşkil edib.

Sözügedən aktivlərin sənədlərinin təqdim olunması məqsədilə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.




# Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır



● Təbiətin möcüzəsi

Qarabağın baş tacı, qədim tarixə malik Şuşanın nadir sərvətləri çoxdur. Onlardan biri də təbiətinə gözəllik, zənginlik verən Topxana meşəsidir. Bu meşə Şuşa rayonu ərazisindəki torpaqların 20 faizini əhatə edirdi. Birinci Qarabağ müharibəsindən əvvəl Topxana meşəsi qocaman palıd, qarağac, fıstıq ağacları ilə məşhur idi. Subalp və alp çəmənləri, dərin dərələrində bulaqlar olan bu meşənin heyvanat aləmi isə ayı, canavar, tülkü, dovşan, cüyür və başqa heyvanlardan, kəklik, turac, göyərçin kimi gözəl quşlardan ibarətdi.



# Topxana meşəsi

## Şuşanın "Topxana" tarixi

Bütün mənbələrdə Topxananın adının 1795-ci ildə Ağa Məhəmməd şah Qacarın Şuşanı mühasirə etdiyi zaman topların yerləşdirildiyi məkan olması ilə bağlılığı qeyd edilib. "Qarabağnamə"lərdə Qacarın Şuşa üzərinə ikinci yürüşündə topları bu meşədə gizlədib şəhərin müdafiə barısını vurduğu bildirilib. O da qeyd olunub ki, topçular qalanın hündür barısını gündüz topla vurub dağıdır, qaladakılar isə gecə ilə həmin yeri yenidən hörüb bərpa edirdilər. Fransız J.Kevrin "Xacə şah" əsərində də bu haqda məlumata rast gəlinir.

Məlumatlara görə, Qacarın ordusunda Rusiya-Türkiyə müharibələrində də iştirak etmiş Həmid adlı təcrübəli topçu xidmət edib. Onu yanına çağıran Ağa Məhəmməd şah qalanın müdafiə barısını dağıtmaq üçün nə lazım olduğunu xəbər alıb. Həmid müdafiəçilərin bərpa işlərini görə bilməmələri üçün gecə dağıdılmış yerə atəş açmağı gərəkli bilib. Belə də olub. Vəziyyətin bu həddə çatdığını görən İbrahimxəlil xan başda olmaqla bir dəstə süvari qəflətən Topxanaya hücum çəkərək Qacarın toplarını məhv edib. Ancaq İran ordusu Şuşa qalasının yolunu bağladığı üçün xan qalaya dönə bilməyib. Meşənin adına bu hadisədən sonra "Topxana" deyilib.

## Qarabağın simvoluna çevrilən - Topxana

XX əsrin sonlarında erməni quldurları Dağlıq Qarabağı işğal etmək, torpaqlarımızı ələ keçirmək məqsədilə təxribatlar törətməyə başladılar. 1980-ci illərin axırlarından erməni yaraqlılarının azərbaycanlılara hücum etdikləri, qətlə yetirdikləri barədə xəbərlər yayıldı. İşğalçıların qəddarlığının, vəhşiliyinin həddi-hüdudu olmadı. Erməni quldurları oradakı azərbaycanlıların rahat həyatına son qoyduqları kimi, təbii sərvətlərini də talamağa başladılar. Viran qoyulan təbii sərvətlərimizdən biri də təbiətin möcüzəsi sayılan Topxana meşəsi oldu. 1988-ci ilin noyabrında erməni təcavüzkarlarının Topxana meşəsini məhv etməyə başladıqları xəbəri bütün Azərbaycanda kəskin etirazlara səbəb oldu.

XX əsrin sonlarında ölkəmizin ərazi bütövlüyünə, torpaqlarına qəsd edən erməni quldurları yalnız soydaşlarımızı qətlə yetirmədilər, onlar həmin ərazilərdə həm də ekoloji soyqırımı həyata keçirdilər.

Otuz ilə yaxın işğal müddətində Topxanadan palıd və digər qiymətli ağaclar kəsilərək Ermənistana daşındı. Həmin müddət ərzində meşə talan olundu, bitki örtüyü, heyvanat aləmi məhv edildi.

Ermənistan SSR tərəfindən almünium zavodlarından birinin filialının Topxana meşəsində tikintisinə başlamaq üçün bu meşənin nadir ağacları buldozerlərlə məhv edildi, yandırıldı.

Yalnız Topxana deyil, otuz ilə yaxın işğal altında qalan digər ərazilərimizdə də bütün dünyada tayı-bərabəri, bənzəri olmayan meşələrimiz işğalçılar tərəfindən çapılıb talandı. Ermənistandan və digər xarici ölkələrdən axın edən ermənilər Laçın, Kəlbəcər, Qubadlı və başqa bölgələrimizdən qiymətli ağac növlərini kütləvi şəkildə qırıb apardılar. Yarımfabrikat şəklində xarici ölkələrə satdılar. Beləcə, Topxanadan minlərlə palıd və digər qiymətli ağaclar kəsilərək daşındı. Şuşanın Cıdır düzündə, "Ağzı yastı" kaha adlanan yerin qarşısında Topxana meşə qoruğu zonasında geniş düzənlik açıldı. Müxtəlif adda qiymətli ağaclar qırılaraq tikinti işlərində istifadə olundu. Təbii qaz olmadığından işğalçı ermənilər həm də meşələrimizdən yanacaq kimi istifadə etdilər.

## Topxana və digər meşələrimiz bərpa olunur

2020-ci ildə İkinci Qarabağ müharibəsində müzəffər Azərbaycan Ordusu tərəfindən Ermənistan silahlı qüvvələri məğlub edildikdən, ərazilərimiz işğaldan azad olunduqdan sonra mənəvi və maddi itkilərimizin nə qədər böyük, ağır olduğu gerçəkliyi ilə qarşılaşdıq. Ancaq ruhdan düşmədik. Dövlətimiz tərəfindən tezliklə quruculuq işlərinə başlanıldı. Hazırda Qarabağ bölgəsində işğalçı Ermənistan tərəfindən məhv edilmiş yaşıllıq massivlərinin bərpası istiqamətində də lazımi tədbirlər görülməkdədir. İşğaldan azad olunmuş ərazilərdə ekoloji tarazlığın bərpası istiqamətində işlər sürətlə davam etdirilir. Məşhur Topxana və digər meşələrimizin bərpa olunması üçün, ilk növbədə təhlükəsizlik tədbirləri həyata keçirilir, bu ərazilər minalardan təmizlənir. Beləliklə, zəruri işlər görülür. Qarabağın bütün gözəllikləri kimi Topxana meşəsi də yenidən canlanacaq.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Milli sərvətimiz

# Şuşanın gözəlliyinə gözəllik gətirən flora və faunası

Şuşanın təbiəti, əsrarəngiz mənzərəsi, işğalçı Ermənistan silahlı birləşmələri tərəfindən 30 ilə yaxın müddətdə şəhərə və şəhərətrafı yaşıllıqlara, meşəliklərə nə qədər ziyan vursalar da, yenə də möhtəşəmliyi ilə insanları heyran edir. Şuşanın dağları, bu yerlərin gözəlliyinə rəng qatan flora və faunası həyat mənbəyidir.







Təbiətin yaşıl "ciyəri" adlandırılan bu meşələr, yaşıllıqlar quşların sığınacaq yeri, insanların mənalı istirahət guşəsi, qələm və fırça ustalarının ilham mənbəyidir. Ərazisinin 20 faizə qədəri meşə zolaqları ilə örtülən Şuşanın flora və faunası olduqca zəngindir. Sanki ana təbiət bu torpaqlardan heç nəyini əsirgəməyib, yeraltı sərvətləri tükənməz xəzinə olduğu kimi, yerüstü sərvətləri də canlı və zəngin təbiət muzeyidir.

Bu ərazidə ən yüksək zirvə 2725 metr hündürlüyündə olan Qarabağ dağ silsiləsinə aid Böyük Kirs dağıdır. Keçəldağ aşırımı da Şuşa rayonunun inzibati ərazisinə daxildir. Burada müxtəlif növ bitki və ağaclar, Turşsu və Şırlan kimi keyfiyyətli mineral su mənbələri var. Ərazinin əksər hissəsi qışı quraq keçən mülayim isti, bəzən isə soyuq iqlim şəraitinə malikdir. Burada yanvar ayında orta temperatur 4 dərəcədən 1 dərəcəyə qədər, iyulda isə müsbət 16-19 dərəcə, illik yağıntı isə 700-800 mm olur. Rayon ərazisindən məşhur Qarqar çayı axır. Torpaqları əsasən, qəhvəyi dağ-meşə, çimli dağ-çəməndir. Yüksək dağlıq sahələr subalp və alp çəmənlikləri ilə örtülüdür.

Şuşanın şimal-şərqində Qarabağ dağ silsiləsinin yamacında yerləşən Çaxmaq meşəsi də bu diyarın nadir sərvətlərindəndir. Kirs, Şırlan, Armudlu, Əylis, Çınqıllı, Quşçular, Malıbəyli meşələri... Zarıslı və Xəlifəli çayları boyu uzanıb gedən, dağların ətəklərinə qədər geniş bir sahəni əhatə edən meşələr bu yerlərin əvəzsiz bəzəyi kimi göz oxşayır.

Şuşalı tədqiqatçı-jurnalist Vasif Quliyev bildirir ki, bitki örtüyünü bir-birindən fərqləndirən və torpaqları, əsasən, qəhvəyi dağ-meşə, qonur dağ-meşə, çimli dağ-çəmən olan çətir-çətir Şuşa meşələrində təbii halda bitən söyüd, qarağac, gərməşov, dəmirağacı, gilas, qarellə, zirinc, saqqızağacı təşkil etsə də, orada tut, qoz, fındıq ağaclarına, nar, qarağat, böyürtkən, moruq kollarına da rast gəlmək olar. Bu meşələrdə dadlı meyvəsi olan alma, xüsusi qulluq tələb etməyən sulu və çox şirin armud tez boy atır. Bar gətirən əncir, zoğal, xoşagəlməz qoxusu olan yemişan, soyuğa davamlı qovaq, havanı zəhərli bakteriyalardan təmizləyən ardıc, qara rəngə çalan şam, ya küknar, süddən səkkiz dəfə qidalı, "gələcəyin çörəyi" adlandırılan qırmızımtıl fıstıq, gövdəsi düz və sarıya çalan çətirli bəzək ağacı göyrüş, palıd, vələs, çinar, qaraçöhrə, sərv, cökə, ağcaqayın, qarağat və digər ağaclarla zəngindir. Bu ərazidə meyvə ağaclarından başqa müalicə, qida əhəmiyyətli və vitaminlərlə zəngin göyəm, həmərsin, itburnu, qarağat, moruq və giləmeyvələr də geniş yayılıb. Çirişli dağının aşağı hissəsində dəniz səviyyəsindən 1160-1210 metr yüksəklikdə, yamacın şimal baxarındakı meşəlikdə bir-birindən təxminən 100 metrə qədər aralı yerləşən 30-a qədər şabalıd ağacları var. Həmin ağaclar palıd-vələs meşələrinin tərkibinə daxildir. Bu ərazidə müxtəlif kol cinsləri, fındıq, alça, göyəm, əzgil, itburnu, ağcaqayın, eyni zamanda Şərq fıstığı, Qafqaz vələsi, İberiya palıdı da bitir və üstünlük təşkil edir. Dağların ətəklərində Şuşa vələsi, Qafqaz qış səhləbi və xarıbülbülə rast gəlmək olar.

Bu baxımdan nəinki Azərbaycanda, onun hüdudlarından kənarda da qədim Şuşa qeyri-adi mənzərəsi, yaşıllıqları, səfalı bulaqları, istirahət guşələri, habelə flora və faunası ilə çox məşhurdur. Bunların içərisində orijinallığı ilə seçilən bir gül var. Təbiətin Şuşa dağlarında yaratdığı bu möcüzə xarıbülbül adlanır. Qarabağın simvoluna çevrilən bu gülün üst tərəfi elə formadadır ki, sanki gülün üstünə bülbül qonub və oradaca donub qalıb. Bölgədə yetişən bu kimi bitki növlərindən 20-si Azərbaycan areallı endemik bitkilərdir. Bu endemik bitkilərin 7 növünə - Qarabağ tülpanı, Qarabağ güləvəri, Zəngilan gəvəni, Sağsağan gülxətmisi, Şuşa vələsi, Şuşa xaşası və Şuşa gəvəninə yalnız bu ərazidə rast gəlinir. Xüsusi mühafizə olunan təbiət ərazilərindən olan Bəsitçay, Qaragöl dövlət təbiət qoruqları, Arazboyu, Laçın, Qubadlı və Daşaltı dövlət təbiət yasaqlıqlarında işğala qədərki dövrlərdə Qarabağın rəmzi olan xarıbülbüllə yanaşı, Şərq çinarı, Əkin şabalıdı, Şuşa vələsi, Vələsyarpaq azat, Giləmeyvəli qaraçöhrə və digər nadir ağac növləri qorunurdu.

Şuşa yaşıllığı, flora və faunasının zənginliyi, havasının təmizliyi, saflığı etibarılə kurort şəhəridir. Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, Şəmilin bulağı, əfsanəvi Cıdır düzü yerli camaatın və oraya təşrif buyuranların ən sevimli yeri idi. Şuşanın 40 kilometrliyində - Laçın yolunun üstündə, yaşıllıqlar qoynunda yerləşən Turşsu istirahət və müalicə zonası kimi tanınırdı. Sol tərəfindən Daşaltı çayı axan bu ərazilər yaşıllığı, flora və faunası ilə istirahətə və müalicəyə gələn insanlarda xoş duyğular yaradırdı. Landşaft müxtəlifliyi baxımından əlverişli olan bu ərazilərdə işğala qədər 2000-dən çox bitki növü mövcud olub ki, bu da Azərbaycan florasının 42 faizini təşkil edirdi. Bölgədəki 50-yə yaxın fauna, 70-dən çox flora növü dünyanın, eyni zamanda Azərbaycan Respublikasının Qırmızı kitablarına salınıb.

Görünən odur ki, təcavüzkar Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizdə həyata keçirilən kortəbii istismar nəticəsində bölgənin təbii sərvətlərinə, ətraf mühitinə, biomüxtəlifliyinə külli miqdarda zərər dəyib, qiymətli ağac və kol növləri ilə zəngin meşələrimiz məqsədli şəkildə qırılıb aparılıb. Meşə ilə örtülü sahələrin 25 faizi işğal altında olan ərazilərdə yerləşir və məlumata görə, qiymətli meşələrin əksəriyyəti erməni vandalları tərəfindən məhv edilib. Şuşa da daxil olmaqla, işğaldan azad edilmiş Qarabağ ərazisində Qırmızı kitaba düşən 120-dək flora və fauna növündən məlumat yoxdur.

İşğaldan azad olunmuş ərazilərdə yaxın zamanlarda aidiyyəti qurumlar genişmiqyaslı monitorinqlər aparacaq, bölgənin ətraf mühitinə, təbii sərvətlərinə, landşaftına və meşələrinə, həmçinin bitki və heyvanat aləminə dəymiş ziyanın hərtərəfli qiymətləndirilməsi həyata keçiriləcək. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və Milli Ordumuzun şücaəti sayəsində ötən ilin noyabrında işğaldan azad edilən bölgələrimizdə, o cümlədən qədim Şuşada sürətlə aparılan yenidənqurma, quruculuq və bərpa işləri sırasında Şuşanın yaşıllıqları, flora və faunası da gündəmdədir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

● Şuşa ziyalıları

# O, xalqına xidmət amalı ilə yaşayıb



Xudadat bəy Məlikaslanov istiqlal mücahidlərindən olub. O, Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli dövlət xadimlərindən biri kimi tanınır. Azərbaycanın ən ağır, ən məsuliyyətli illərində yüksək vəzifələr daşıyan bu şəxs, əslində, həmin vaxtadək də, sonra da bütün varlığı ilə Vətəninə xidmət mücəssəməsi olub. Əfsuslar ki, ömrünün son illəri sovet hakimiyyəti dövrünə təsadüf edən Məlikaslanov amansız rejim tərəfindən təqiblərə, təzyiqlərə, işgəncələrə məruz qalaraq məhv edilib.

Müxtəlif ensiklopediyalarda X.Məlikaslanovun cümhuriyyət dövründə rəhbər vəzifələrdə çalışdığı, parlament üzvü olduğu göstərilir. Bütün bunlardan öncə isə Xudadat bəy dərin biliyə və savada malik nadir mütəxəssis, ixtiraçı-mühəndis və alim idi. Xüsusilə dəmir yolu nəqliyyatı sahəsində ixtisaslaşmışdı. Texnika elmləri üzrə azərbaycanlılar arasında ilk professor adını alanlardan idi.

Xudadat bəy Ağa oğlu Məlikaslanov 1879-cu ilin aprel ayında Şuşanın Tuğ kəndində anadan olmuşdu. 1899-cu ildə Şuşa Realnı Məktəbini bitirdikdən sonra Peterburq Yol Mühəndisliyi İnstitutuna qəbul edilmişdi. Beş il sonra həmin ali məktəbi birinci dərəcəli diplomla başa vurmuşdu.

1901-1904-cü illərdə Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının üzvü olan və partiyanın Peterburq komitəsində çalışan Xudadat bəy bir müddətdən sonra həmişəlik bitərəf qalır. Yəni ömrünün sonunadək heç bir partiyaya üzv olmur.

Gənc mühəndis yarım il Sankt-Peterburqda Voloqda-Petrozavodsk Dəmir yolunun Çəkilişi İdarəsində çalışır.

1905-ci ildə Tiflisə köçərək Zaqafqaziya dəmir yolunda işləyir.

1917-ci ilin fevral inqilabından az sonra - mart ayında Xudadat bəy Məlikaslanov müvəqqəti hökumətin sərəncamı ilə Xüsusi Zaqafqaziya Komitəsində dəmir yolu üzrə müvəkkil təyin edilir. Onun vəzifəsi tez-tez dəyişdirilir, bacarığı, idarəetmə qabiliyyəti ilə hamının rəğbətini qazanır, eyni zamanda yüksəliş pillələri ilə sürətlə irəliləyir. Heç bir il keçmir ki, ona Zaqafqaziya komissarlığında Dəmiryol Nəqliyyatı Nazirliyi üzrə komissar vəzifəsi tapşırılır. Bir neçə ay sonra isə təzəcə yaradılmış müstəqil Zaqafqaziya Federativ Respublikası hökumətinin dəmir yolu naziri təyin edilir.

Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra o, daha böyük həvəslə çalışır, özünü oda-közə vurur, gücü və bacarığı nəyə çatırdısa, onu da yerinə yetirir.

Xudadat bəyin məsləkdaşları və silahdaşları çox idi. Onları sanki zamanın özü yetişdirmişdi. Üstün cəhətləri ondadı ki, bu insanların əksəriyyəti təhsillərini Avropanın nüfuzlu universitetlərində almışdılar, siyasi proseslərdə bişmiş mütərəqqi ruhlu ziyalı idilər.

X.Məlikaslanov da cümhuriyyətdə ilk dəfə nazir təyin olunanda heç 40 yaşı yox idi. Amma zəngin təcrübə toplamışdı. Dərin biliyə, idarəçilik qabiliyyətinə və təşkilatçılıq bacarığına malik idi.

Gənc respublikanın gənc yollar naziri öz həmkarları və məsləkdaşları ilə əl-ələ verərək məqsədyönlü tədbirlər həyata keçirirdi. Onlar həm yolların şəbəkəsinin genişləndirilməsinə və rahatlığının təmin olunmasına, həm də bu yollarda hərəkət edən texnikanın sazlığına və çoxaldılmasına böyük əhəmiyyət verirdilər. Ən vacib məsələlərdən biri də yollarda, xüsusilə digər respublikalara gediş-gəliş yollarında təhlükəsizliyin təmin olunması idi.

Beləliklə, o dövrdə X.Məlikaslanovun rəhbərlik etdiyi nazirliyin xətti ilə görülən işlər tarixin yaddaşında bu cür qalıb: 1919-cu il iyulun 15-dən Bakı-Batum istiqamətində 4 cüt qatarın, ilin sonunda isə Bakı-Port-Petrovsk (Mahaçqala) istiqamətində ciddi qrafik üzrə gündə 4 cüt qatarın hərəkəti təmin edildi.

1918-ci il oktyabrın 30-da Bakı Ticarət Limanı İdarəsinin fəaliyyəti bərpa olundu. Ticarət gəmiləri ilə Bakı-Mahaçqala, Salyan, Lənkəran limanları arasında sərnişin və yük daşınması təşkil edildi. Hökumətin ciddi səyləri və nazirliyin gərgin zəhməti nəticəsində 1919-cu ildə Bakı-Batum neft kəməri də bərpa edilib istifadəyə verildi. 1919-cu ilin avqust ayında ingilis qoşunları Azərbaycandan çıxdıqdan sonra Bakı limanı və ticarət donanması da cümhuriyyət hökumətinin sərəncamına keçdi. Ölkənin ticarət gəmiləri Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı altında üzməyə başladı.

Nazir X.Məlikaslanovun rəhbərliyi ilə yollarda hələ çox yeniliklərin olacağı şübhəsiz idi. Lakin 1920-ci ilin aprel işğalı bu planları yarımçıq qoydu.

Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli dövlət xadimi X.Məlikaslanov bu illər ərzində həm siyasi proseslərin önündə olmuş, həm də böyük quruculuq fəaliyyəti göstərmişdir. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının üzvü olan X.Məlikaslanov cümhuriyyətin 1-ci və 2-ci hökumət kabinetlərində yollar və poçt-teleqraf naziri, 3-cü, 4-cü və 5-ci kabinetlərdə yollar naziri idi. 5-ci hökumət kabinetində 1920-ci il fevralın 18-dək müvəqqəti olaraq həm də ticarət, sənaye və ərzaq nazirinin səlahiyyətlərini icra etmişdi.

1920-ci ilin aprel ayında Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra X.Məlikaslanov yenə də bir sıra rəhbər vəzifələrdə çalışır. Sovetlər X.Məlikaslanovun nəyə qadir olduğunu yaxşı bilirdilər. Başa düşürdülər ki, o, yüksəkixtisaslı mütəxəssis, təcrübəli təşkilatçı və Vətənini sevən ziyalıdır. Bunun üçün də ona ən məsul vəzifələri tapşırmaqdan belə çəkinmirdilər. Əlbəttə, onlar bunu X.Məlikaslanova olan hörmət və etimada görə deyil, öz mənafeləri naminə edirdilər.

X.Məlikaslanov hətta müxtəlif illərdə paralel olaraq bir neçə vəzifəni icra edirdi. 1929-cu ildə Azərbaycan SSR MİK-nın qərarı ilə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutuna həqiqi üzv seçilmişdi. Növbəti 1930-cu ildə Azərbaycan Neft İnstitutunun Nəqliyyat fakültəsinə rəhbərlik etmişdi.

Sovet hökuməti cümhuriyyət dövrünün kadrlarından öz mənafeyi naminə istifadə etsə də, onları həmişə düşmən gözündə görürdü. Onları izləyir, şərləyir, cəzaya məhkum edirdilər. Təbii ki, X.Məlikaslanovu da belə bir tale gözləyirdi. O, 1930-cu ilin əvvəlində Azərbaycan SSR XDİK-nin siyasi idarəsi tərəfindən "Azərbaycan Milli Mərkəzinin işi" üzrə ittiham olunaraq həbs edilir. 1933-cü ilin ortalarında azadlığa buraxılır. Bundan sonra sovet hakimiyyəti yenidən X.Məlikaslanovun bacarığından istifadə edərək ona məsul vəzifələr tapşırır.

Ovaxtkı rejim Xudadat bəyin qolqanadını dəfələrlə sındırmış, onu yersiz alçaltmış, nahaq yerə incitmiş, həbs etmişdi. Amma bu dəyanətli insanın iradəsi sınmamış, gücdən düşməmişdi. Bütün bunlardan sonra da o, Azərbaycanda magistral dəmir yolu şəbəkəsinin inkişaf planının işlənib həyata keçirilməsinə böyük töhfə vermişdir. Onun həllinə çalışdığı problemlərdən biri də şəhərdaxili nəqliyyat məsələləri idi.

Bütün bu illər ərzində Xudadat bəy qələmini də yerə qoymamışdı. O çalışdığı sahələrə aid 70-dən çox əsər yazmışdı. Bunların arasında dəmir yolu nəqliyyatına aid 3 monoqrafiya da var idi.

Lakin Xudadat bəyin başı üzərində daim qara qüvvə dolaşmaqda idi. 1934-cü ilin avqust ayında o, yenidən həbs olunur. Təbii ki, yenə də əsassız ittihamlarla: əks-inqilabi, millətçi təşkilatın üzvü olduğu, ideoloji cəbhədə rəhbər vəzifələri zəbt etmək niyyəti daşıdığı və xalq təsərrüfatının əsas sahələrində (neft, nəqliyyat, poçt-teleqraf) "ziyankarlıq" apardığı üçün. Ona trotskiçi, əks-inqilabçı, millətçi və daha nə adlar qoymamışdılar?!

Həyat yolları onu ömrünün sonunda da gəncliyinin keçdiyi Rusiyaya aparır. Həbs düşərgəsində amansız işgəncələr, ağrı-acılar onu həm mənəvi, həm də fiziki cəhətdən məhv edirdi. Hər gün ona nə vaxt divan tutulacağını gözləyirdi. Bütün bunlar - insan amilini üstələyən ideoloji zorakılıq, siyasi məntiqsizlik, güllələnmə, sürgünlük, şəxsiyyətə pərəstiş üzərində qərar tutan siyasi sistemin tükürpərdən reallıqları idi. Beləcə 1935-ci il iyulun 23-də Xudadat bəy Məlikaslanov elə həbs düşərgəsində dünyasını dəyişir.

İllər keçdi, çox bulanıq sular axıb duruldu. 1959-cu ildə X.Məlikaslanov da bəraət aldı. Xudadat bəy cəllad əli ilə xalqının, Vətəninin qoynundan alınmış bir ziyalı idi. Bu gün onun həyatını, fəaliyyətini öyrənənlər bilirlər ki, X.Məlikaslanov dövlətinə, xalqına hələ çox fayda verə bilərdi. Min təəssüf!

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***




# Dalğaların səsi ilə

Müasir vaxtda insanların yol yoldaşına çevrilən radio ötən illərdə də hər evdə olan önəmli avadanlıqlardan biri idi. Maraqlı tarixi olan bu qurğunun kimin hazırladığı dəqiq bilinməsə də, 1893-cü ildə ixtiraçı Nikolay Teslanın ABŞ-ın Missuri ştatında ilk radionu nümayiş etdirməsi məlumdur.



Lakin radionun tarixində Guglielmo Markonini əsas və ilklərdən biri hesab edirlər. Belə ki, o, hazırladığı radionun patentini daha tez alıb, Markoni 1901-ci ildə Atlantik okeanı üzərindən ilk siqnal ötürən şəxs olduğu üçün adı əbədiləşdirilib.

1920-ci illərə qədər radiodan ilk növbədə dənizdə olan gəmilərlə əlaqə saxlamaq üçün istifadə olunub. Qurğunun istifadəsi zamanı aydın rabitə imkanı olmadığından operatorlar, adətən, Morze əlifbasındakı kodlu mesajlarla ünsiyyət yaradıblar. Bu, xüsusilə fövqəladə hallar zamanı suda olan gəmilər üçün böyük fayda verib. Birinci Dünya müharibəsi nəticəsində radionun əhəmiyyətli qurğu olduğu üzə çıxıb və istifadə imkanları genişləndirilərək daha çox tələbatı ödəyib. Müharibə zamanı demək olar ki, yalnız hərbçilər ondan istifadə ediblər. Qurğu fiziki xəbərçiyə ehtiyac olmadan real vaxtda silahlı qüvvələrə mesajların göndərilməsi və alınmasında əvəzsiz alətə çevrilmişdi.

1920-ci illərdən sonra radionun populyarlığının artması adi vətəndaşları da cihazı almağa sövq etmişdi. Həmin zamanda Amerikada və Böyük Britaniyada yayım stansiyaları meydana çıxmağa başlamışdı. "Westinghouse" şirkəti "KDKA" adlı radionun yaradılmasında ilk rəsmi lisenziya almış stansiya olub. Daha sonra radio satışı üçün ilk dəfə bu sahədə reklamı da həyata keçirib. Britaniyada isə radio yayımları 1922-ci ildə Londonda "BBC" ilə başlayıb. 4 il sonra radio əhali arasında aparıcı məlumat mənbəyinə çevrilib. Hətta bir çox evdə ailə üzvlərinin bir araya toplaşıb əyləncəli və səmərəli vaxt keçirməsinə şərait yaradan vasitə kimi də şöhrət qazanıb.

İkinci Dünya müharibəsi illərində radio özəlliyi ilə bir daha mühüm rol oynadı. Jurnalistlər radio vasitəsilə müharibə xəbərlərini, gedişatı, lazımi informasiyaları ictimaiyyətə çatdırdı. Ondan təbliğat mənbəyi kimi müharibəyə ictimai dəstəyin verilməsində istifadə edilirdi. Xüsusilə İngiltərədə televiziya stansiyaları bağlandıqdan sonra əsaslı informasiya qaynağına çevrildi. Radiodan istifadə üsulu müharibədən sonra xeyli dəyişdi. Əvvəllər silsilə proqramlar şəklində xəbər, əyləncə üçün fəaliyyət göstərirdisə, artıq daha çox dövrün musiqisini səsləndirməyə diqqət göstərən vasitəyə çevrildi. Musiqi ilə radioların hədəf auditoriyası yeniyetmələrdən tutmuş qocalara qədər geniş kütlə ilə əhatələndi.

Hazırda radio Tesla və Markoninin təsəvvür edə biləcəyindən daha çox funksiyaya sahibdir. Dünya təcrübəsində radio dalğaları ixtisaslaşmış müxtəlif sahələr üzrə fəaliyyətlərini həyata keçirirlər. Musiqi və əyləncə kanalları ilə yanaşı, idman, səhiyyə, elm, təhsil, siyasət və s. kimi istiqamətləri əhatə edən dalğalar da mövcuddur.

## Uzaqdan idarəetmə cihazı

Əşyaların uzaqdan idarə edilməsində əvəzsiz rolu olan düyməli idarəetmə cihazının - "pult"un icadı ilə bir çox işlər asanlaşdırılıb. Müəyyən düymələrə toxunmaq kifayət edir ki, cihaza komanda verilsin və müvafiq əmr yerinə yetirilsin.




Pultun ilk təsviri Nikola Teslaya aiddir. O, 1898-ci ildə hərəkət edən gəmilərin və quru nəqliyyat vasitələrinin mexanizmlərinin naqilsiz idarə edilməsi üçün cihaz kəşf etmişdi. Həmin ildə bu ideyanı patentləşdirərək sərgidə ilk dəfə pult ilə idarə olunan qayıq maketini ictimaiyyətə göstərmişdi.

Daha sonra - 1903-cü ildə İspaniyada Leonardo Torres de Kevedo elektromaqnit dalğalı siqnalla verilən əmrləri yerinə yetirən "Telekin" cihazını təqdim etdi. O, ixtirasını 3 ölkədə patentləşdirmişdi. Bu cihazın hərbi texnikalarda istifadəsi nəzərdə tutulsa da, maliyyə çatışmazlığı səbəbindən həyata keçirilmədi. İkinci Dünya müharibəsi illərində almanlar uzaqdan idarə olunan hərbi raketlər üzərində müntəzəm işləyirdilər. Nəticədə Almaniyada dünyanın ilk uzaqdan idarə olunan zenit raketi olan "Wasserfall" yaradıldı.

İlk naqilsiz televizor pultuna gəldikdə isə o, 1955-ci ildə "Zenith Radio Corporation"da işləyən amerikalı Eugene Polley tərəfindən hazırlanıb. Bir düyməli "Flash-Matic" adlandırılan pult siqnalı işıq şüası ilə ötürürdü. Görünüşcə fanara bənzəyən cihaz televizorun 4 küncündə yerləşdirilən müvafiq hissələrə tutularaq tənzimlənirdi, yalnız yandırıb-söndürmək funksiyasına malik idi. Lakin işığın qeyri-dəqiqliyi istifadəçilər üçün çətinlik yaradırdı.

Şirkətin bir il sonra hazırladığı nümunə isə kütləvi istehsalın başlanmasına səbəb oldu. Mühəndis Robert Adler cihazı ultrasəs texnologiyası əsasında ərsəyə gətirmişdi. 4 düyməli bu pultlar bazarda uzun müddət dominant olaraq qaldı. Lakin belə cihazla satılan televizorların qiyməti çox baha idi. 1960-cı illərin əvvəllərində şirkət yeni təqdim etdiyi pultların ölçü və funksiyasında dəyişiklik etdi. Onlar daha kiçik ölçülü idi və batareyadan istifadə mexanizmi ilə işləyirdi.

## İlk ruhi xəstəxana



Psixoloji baxımdan yardıma ehtiyacı olanların kütlə arasında nəzarətsiz yaşaması, habelə diqqətdən, müalicədən kənar qalması xırda ailə münaqişələrindən böyük faciələrə qədər gətirib çıxarırdı. Buna görə ruhi xəstəxanalar belə insanların güman yerinə çevrildi.

Ruhi xəstəxanaların tarixi ərəb xilafəti ilə bağlıdır. Belə ki, ilk ruhi xəstəxana tipli mərkəz 705-ci ildə Bağdad şəhərində açılıb. VI Əməvi xəlifəsi I Vəlidin əmri ilə yaradılan və dünya tarixində ilk belə mərkəz olan məkan ruhi-psixoloji xəstəliklərdən əziyyət çəkən şəxslərin bir yerə toplanması və saxlanılması üçün nəzərdə tutulmuşdu. Növbəti ruhi xəstəxana da Şərqdə yaradılıb. Bu, 800-cü ildə Qahirə şəhərində açılan xəstəxana idi. 1270-ci ildə Dəməşq şəhərində isə ruhi-əsəb xəstəliklərindən əziyyət çəkən şəxslərin vəziyyətlərinin öyrənilməsi məqsədilə ilk institutun əsası qoyulub. Dəməşqdəki xəstəxana əvvəlkilərə nisbətən daha böyük və geniş imkanlara sahib idi. Şərq alimləri ruhi xəstələrin meditasiya, musiqi terapiyası və dərmanlarla sağala biləcəyinə inanırdılar. Bu məqsədlə institutda təcrübələr aparılırdı.

Qərb aləmində isə bu cür xəstəxanalar daha sonrakı dövrlərə təsadüf edir. Avropada ilk ruhi xəstəxanaların yaradılmasına XV əsrdə rast gəlinib. 1642-ci ildə Paris yaxınlığında Filip Pinelin rəhbərliyi altında açılmış "Bisetre" xəstəxanası Avropada ilk peşəkar psixoloji mərkəz sayılır. Burada yaradılan mərkəzlərin əsas fərqliliyi qapalı şəkildə fəaliyyət göstərmələri idi. Xəstəxanalara kənar şəxslərin daxil olması, xəstələrin nəzarətsiz bayıra çıxmaları qadağan edilmişdi.

İlk ictimai xəstəxana isə 1812-ci ildə Böyük Britaniyada fəaliyyətə başlayıb. Psixi pozğunluğu olan insanlara humanist himayədarlığı ilə seçilən Vilyam Tuke həmin xəstəxanada bir çox təcrübə apararaq yeni nəzəriyyələr hazırlayırdı. 1845-ci ildə İngiltərədə psixi sağlamlıqla bağlı qəbul edilən qanuna görə hər bölgədə sığınacaqlar yaradıldı. Bundan əlavə, dövlət orqanları müntəzəm yoxlamalar keçirməli, sığınacaqlarda terapiyalar həkimlər tərəfindən müəyyənləşdirilən xüsusi qaydalarla aparılmalı idi.

İlk ruhi dispanserlərdə xəstələrlə bəzən çox qəddar formada davranışlar sərgilənirdi. Bu sahə tam araşdırılmadığından və inkişafı nisbətən ləng getdiyindən məhdudlaşdırmalar lazım olandan daha sərt tətbiq edilirdi. XIX əsrin əvvəllərində İngiltərədə ruhi xəstəxanalarda yerləşdirilən bir neçə min xəstə var idisə, bir əsr sonra bu rəqəm təxminən 100.000-ə yüksəldi. Bu artım daha sonra psixiatriya ixtisasının inkişafına və şaxələnməsinə gətirib çıxardı. XX əsrin ortalarından sonra demək olar ki, bütün dünya ölkələrində psixoloji dispanserlər fəaliyyət göstərirdi.

Ruhi xəstəxanaların fəaliyyəti cəmiyyət üçün çox əhəmiyyətli oldu. Belə xəstələrin düzgün müalicə olunması, müvafiq yerlərdə nəzarət altında seanslar keçməsi vacib idi. Nəzərə almaq lazımdır ki, ciddi psixi pozuntulu şəxslərin müalicədən kənar qalması böyük fəsadlara gətirib çıxara bilər.

## Canlanan rəsmlər - ilk cizgi filmi

Uşaqdan böyüyə hər kəsin sevimli əyləncəsinə çevrilən cizgi filmləri ovsunlayıcı quruluşu ilə heyrət yaradır. Texnologiyanın inkişafı nəticəsində tətbiq edilən effektlər istənilən xəyali obraz və ab-havanın yaradılmasına imkan verir. Lakin animasiyanın ilk yarandığı vaxtda səssiz və sadə üslubu əsasən azyaşlılarda maraq oyadırdı.



Çizgi filmlərinin əsası əllə çəkilən animasiyadan başlayır. İngilis dilində olan animasiya (animation) "canlandırmaq, həyat vermək" sözlərini ifadə edir. İlk animasiya ardarda yığılan şəkillərin sürətli şəkildə çevrilməsi ilə meydana çıxmışdı. Bu zaman görüntülər sanki canlanaraq hərəkət edirdi. "Fenakistiskop" isə ilk animasiya alətlərindən biridir. Bu alət 1830-cu illərdə Cozef Plateu və Simon von Stamfer tərəfindən icad edilib. Yuvarlaq fırlanan karton diskdə şəkillər ardıcıl olaraq mərkəz ətrafında fırlanaraq əks olunurdu.

Kinonun icadı ilə animasiya daha fərqli müstəvidən inkişaf etməyə başladı. İlk animasiya filmi 1906-cı ildə amerikalı kinorejissor Ceyms Stüart Blektonun yaradıcılığının məhsuludur. "Humorous Phases of Funny Faces" adlı səssiz cizgi filmində qara lövhəyə təbaşirlə çəkilən animasiyalı insan obrazları sətiraltı yumoristik mənalarla zəngin idi. Rəsmlərin öz-özünə hərəkəti kimi görünən səhnələr təqdim edilir, bir səhnədən digərinə keçilən zaman isə lövhədəki təsvirlər silinirdi.

Film cəmiyyətdə böyük təəccübə və təsirə səbəb olduğundan digər rejissorlarda da bu sahəyə maraq oyatmışdı. Ardınca 1907-ci ildə çəkilmiş qısametrajlı "The Haunted Hotel" cizgi filmi Avropada böyük populyarlıq qazandı. Bununla da Blektonun yaradıcılığının sirri olan animasiya sənəti öyrənilməyə başlandı. Animasiya sahəsində digər önəmli şəxslərdən biri də Vinsor Mekkeydir. O, 1914-cü ildə "Gertie the Dinosaur" adlı filmində ilk dəfə yeni üsuldan istifadə etdi. Təsvirlər kağız üzərinə çəkildi. Bununla da müasir animasiyanın əsası qoyuldu.

1928-1938-ci illər ərzində animasiyalar cizgi filmlərinə çevrilməyə başlayaraq böyük irəliləyişlər əldə etdi. Həmin vaxtda əlavə edilən səs və təkmilləşmiş görüntülərin vəhdəti bu sahənin inqilabı idi. "Walt Disney" şirkəti ilə xəyali ideyaların ekranlaşdırılmasına keçid edildi. Yeni cizgi filmi qəhrəmanlarına sahib olan şirkət "Mickey Mouse", "Donald Duck" kimi dillər əzbərinə çevrilən obrazları yaratdı. "Walt Disney"in ilk səsli cizgi filmi "Steamboat Willie", ilk rəngli filmi isə "Flowers and Tress" oldu.

Sonrakı vaxtlarda texnoloji yeniliklər cizgi filmlərində 3D modelli personajların yaradılmasına və xüsusi effektlər vasitəsilə daha heyrətamiz dünyaların canlandırılmasına imkan verdi.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***




## Elastik ekranlı «ağıllı» saatlar

"Xiaomi" yeni smart saatı patentləşdirib. Patent sənədinə əsasən, saat böyük ölçülü elastik ekranla təchiz olunacaq və o, həmin ekranın gövdəsi boyunca uzanacaq.

Bu konstruksiya istifadəçinin smart qolbaqdan istifadə imkanlarını daha yüksək səviyyəyə qaldıracaq. "Ağıllı" saatın ekranı gövdə radiusunun 1/3 hissəsi qədər uzanır. Saatın üzərində bərkidici mexanizm yerləşdirilib. Cihazın texniki özəllikləri barəsində məlumat hələ ki, verilməyib.



Hazırda bu cihaz yalnız kağız üzərində mövcuddur və istehsalına yaxın vaxtlarda başlanılması gözlənilir.

## «Apple»ın yenilikləri

"Apple" 5G dəstəkli yeni "iPhone SE" smartfon modelindən əlavə yeni nəsil "iPad Air" planşetini, yeni "Mac Studio" kompüterini və 27 düym ölçülü "Studio Display" ekranını təqdim edib.



Yeni "iPad Air" modeli 5G dəstəkli "Apple M1" prosessoruna və "iPad Pro" dizaynına sahibdir. Planşet HDR dəstəkli 10.9 düym "Liquid Retina" ekran ilə təchiz olunub, 12 meqapiksellik ön və arxa kameraları var. Cihazın prosessoru daha əvvəlki "iPad Air"də istifadə edilmiş prosessordan 60 faiz daha keyfiyyətli, qrafik çipi isə ikiqat sürətlidir.

"Apple"dan bildiriblər ki, yeni nəsil "iPad Air" modeli 64/256 GB daxili yaddaş həcminə malikdir.Yeni planşetin əsas özəlliyi isə ondan ibarətdir ki, o, 5G dəstəyinə sahibdir. "Touch ID" texnologiyası planşetin yandırıb-söndürmə düyməsinə inteqrasiya edilib. Daha əvvəlki "iPad" modelləri kimi, yeni "iPad Air" də "Apple Pencil" stilusuna sahibdir. Bundan əlavə, planşetə "Magic Keyboard" klaviaturasını da birləşdirmək olar. Planşet bu il martın 18-də satışa çıxarılacaq.

Stolüstü "Mac Studio" kompüterinə gəldikdə isə o, kompakt ölçülü "Mac Mini" ilə "Mac Pro" arasında olan yeni cihazdır. Güclü texniki özəllikləri var və əsasən videomontaj, animasiyalar və 3D modelləşdirmə ilə çalışan istifadəçilər üçün nəzərdə tutulub. "Mac Studio" 5 nanometrlik "Apple M1 Ultra" prosessoru ilə təchiz olunub. O, "Apple" tərəfindən yaradılmış ən güclü prosessordur.

"Apple M1 Ultra" özündə 64 nüvəli qrafik prosessorunu və 32 nüvəli neyron prosessorunu birləşdirir. "Mac Studio"nun daha aşağı səviyyəli modelləri "Apple M1 Max" prosessoru ilə təchiz olunacaq. "Mac Studio"nun mərkəzi prosessorunun gücü 28 nüvəli "Intel Xeon" ilə müqayisədə 60 faiz, qrafik prosessorunun gücü isə "Radeon Pro W6900X" ilə müqayisədə 80 faiz yüksəlib.

"Mac Studio" metal gövdəyə sahibdir və xarici görünüşünə görə bir qədər böyük ölçülü "Mac Mini"ni xatırladır. Hündürlüyü 9.4 santimetr, eni və uzunluğu 19.6 santimetrdir. Kompüterə güclü soyutma sistemi də quraşdırılıb. "Mac Studio"da "USB Type-C", 4 ədəd "Thunderbolt 4", 10Gb "Ethernet", 2 ədəd "USB Type-A", HDMI girişləri və 3.5 millimetrlik audiogiriş mövcuddur. Bundan əlavə, kompüter özündə SD girişi də birləşdirir. "Mac Studio" Wi-Fi 6 və Bluetooth 5.0 dəstəyi ilə reallaşdırılıb.

Təqdim olunan yeniliklər arasında 20 nüvəli "Apple M1 Ultra" da var. "M1 Ultra"nın əsas fərqləndirici cəhəti onun "Ultra Fusion" adlı arxitekturaya sahib olmasıdır. Bunun sayəsində "Apple" 2 ədəd "M1 Max" çipini böyük bir prosessorda birləşdirib. Bu, "M1 Max"da saniyədə 2.5 terabayt sürətli ötürmə qabiliyyətinə sahib prosessorlararası birləşmə özəlliyi hesabına mümkün olub. Nəticədə "M1 Ultra" "M1 Max"ın göstəricilərini iki dəfə yüksəldir.

"Apple" 114 milyard tranzistordan ibarət nəhəng vahid çip əldə edə bilir. "M1 Ultra"nın ən yüksək enerji sərfiyyatı göstəricisi "Intel" prosessorları ilə müqayisədə 100 vatt daha azdır. Prosessorun qrafik gücü isə "GeForce RTX 3090"la eynidir.

"M1 Ultra"nın yaddaşının ötürmə qabiliyyəti saniyədə 800 GB təşkil edir və 128 geqabayt kimi RAM yaddaşını dəstəkləyir. Bu prosessor ilk olaraq "Mac Studio" kompüterinə quraşdırılıb. Lakin istisna deyil ki, gələcəkdə "Mac Pro" modelləri də bu prosessor ilə təchiz olunacaqlar.

## Qocalmanı ləngitmək mümkün olacaq

ABŞ-ın Bioloji Tədqiqatlar İnstitutunun əməkdaşları siçanlarda qocalmanı effektiv və təhlükəsiz şəkildə dayandıra bilib. Belə ki, alimlər siçanların hüceyrələrini cavanlaşdıra biliblər.

Orqanizmin qocalma prosesi zamanı onun hüceyrələri DNT daxilində digər kimyəvi birləşmələri əmələ gətirir. Həmin birləşmələr epigenetik markerlər adlanır. Körpə siçanların DNT-lərində bu cür birləşmələr yoxdur. Daha əvvəl aparılmış tədqiqatlar onu göstərib ki, qocalan hüceyrələrə yenidən proqramlaşdırılmış 4 ədəd molekulun (Oct4, Sox2, Klfc4, cMyc) əlavə edilməsi epigenetik markerləri ilkin vəziyyətinə geri qaytara bilir.

Hələ 2016-cı ildə aparılmış tədqiqatlar zamanı qocalma prosesinə daxil olmuş siçanlarda həyat davamlılığının artırılması üçün bu üsuldan uğurla istifadə edilmişdi. Ötən il isə məlum olmuşdur ki, yuxarıda qeyd edilmiş 4 molekul hətta cavan siçanlarda əzələlərin sürətlə bərpasını reallaşdıra bilir. Digər tədqiqatçılar eyni üsulu beynin, ürəyin və görmə sinirinin daha yaxşı çalışmasında istifadə edərək müsbət nəticələr almışdılar.



İnstitutun alimləri yeni tədqiqat zamanı sağlam heyvanların qocalma prosesləri çərçivəsində hüceyrə regenerasiyası üçün bu üsulu nəzərdən keçiriblər. Yuxarıda qeyd edilmiş molekulların daimi dozası 15-22 aylıq (50-70 yaş ekvivalenti) siçanlardan ibarət birinci qrupa, 12-22 aylıq (35-70 yaş ekvivalenti) siçanlardan ibarət ikinci qrupa və 25 aylıq (80 yaş ekvivalenti) siçanlardan ibarət üçüncü qrupa verilib. Üçüncü qrupa daxil olan siçanlar yalnız bir aylıq müalicə prosesindən keçiblər. Alimlərin məqsədi bu üsulun daha uzun müddət ərzində istifadəsinin təhlükəsiz olduğunu təyin etmək olub. Nəticədə siçanların səhhətlərində heç bir neqativ hal yaşanmayıb və 7-10 aylıq müalicə prosesindən keçmiş siçanlar daha cavan siçanlara bənzəməyə başlayıblar.

## «Quql»dan yeni texnologiya

"Quql" cihazlarda (smart saatlar, smart qolbaqlar, naqilsiz qulaqcıqlar və s.) istifadə üçün nəzərdə tutulmuş yeni jest texnologiyasını patentləşdirib. Jestlər vasitəsilə xüsusi sensorlu panellər əvəzinə cihazın təmasda olduğu biləkdəki və ya boyundakı dəridən istifadə nəzərdə tutulub.



Bu texnologiya "Skin Interface" adlanır. Cihazın funksiyalarından istifadə etmək üçün istifadəçi onu öz dərisinə toxundurmalıdır. Bu zaman müvafiq jest (üfüqi və şaquli sürüşdürmə, bir və ya bir neçə barmaq vasitəsilə qısa və ya uzunmüddətli toxunuş) mexaniki dalğa yaradır və beləliklə, cihazın sensorları həmin dalğanı qəbul edir. Bu üsul vasitəsilə telefon zənglərinə cavab vermək, sonlandırmaq, qulaqcıqlardakı səsi tənzimləmək və musiqini dəyişmək mümkün olacaq.

Şirkət həmçinin müəyyən əmrlərin yerinə yetirilməsi üçün nəzərdə tutulmamış jestlərin filtrasiyası üçün "machine learning" texnologiyasının tətbiqini planlaşdırır. Bunun sayəsində istifadəçi bu və ya digər funksiyanın işə salınmasından qorxmayaraq rahat hərəkət edəcək.

"Pixel Buds" naqilsiz qulaqcıqlarından istifadə edənlər isə qulağın dərisinə toxunmaqla bu funksiyadan istifadə edə biləcəklər.

## Yeni «Samsung Galaxy S22»

"Samsung" yeni smartfonunu təqdim edib. İnnovativ texnologiyaların sərgiləndiyi təqdimat Gürcüstanda baş tutub. Yeni model öz nəslinin əvvəlki nümayəndələri ilə müqayisədə daha da təkmilləşdirilib. Bu seriyaya "S22", "S22+" və "S22 ULTRA" daxildir.



Yeni smartfonda əvvəlki modellərə nisbətdə dörd nanometrlik arxitektura əsasında "Snapdragon 8"lə daha gücləndirilmiş prosessora keçid edilib. Həmçinin kamera təkmilləşdirilərək 50 meqapikselə çatdırılıb, ekran ölçüsü digər modellərə nisbətən kiçildilərək 6.1 düymə endirilib. 120 Hz ekran yenilənmə tezliyi ilə istər oyun zamanı, istərsə də film izləyərkən görüntünü daha axıcı və canlı edir. Super "Amoled" ekrana malik bu yeni modelin ekran parlaqlığı daha yüksək səviyyədədir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

## Vahid «USB» sistemi

Avropa İttifaqına daxil olan ölkələr bu ilin sonunadək smartfonlar, planşetlər, qulaqcıqlar və digər elektron cihazlar üçün vahid "USB" sisteminə keçəcəklər. Avropa Komissiyası bu layihəni ilk dəfə 10 il əvvəl təklif etmişdi. Lakin həmin layihədə yalnız smartfonlar, planşetlər və qulaqcıqlar qeyd olunurdu.



Android və iOS istifadəçiləri artıq uzun illərdir ki, müxtəlif şarj cihazlarından istifadə edirlər. "iPhone" modelləri "Lightning" girişi vasitəsilə şarj olunduqları halda müasir Android smartfonlar "USB Type-C" girişi vasitəsilə şarj olunur. Statistikaya əsasən, smartfonların yarısı "USB micro-B", 29 faizi "USB Type-C", 21 faizi isə "Lightning" girişindən istifadə edir. Hazırda istifadəçi sayına görə üstünlük "USB Type-C" girişinin payına düşür.

Vahid şarj girişi standartı yalnız smartfonlara deyil, elektron kitablara, az enerji sərfi olan noutbuklara, klaviaturalara, qulaqcıqlara, smart saatlara və elektron oyuncaqlara da inteqrasiya ediləcək.

Elektron cihazlar 6 ay sonra - vahid şarj girişi standartını əhatə edən yeni qanun qəbul ediləndən sonra qüvvəyə minəcək.

Yeni nəşrlər

# «Dəmir yumruğ»un salnaməsi



2020-ci il sentyabrın 27-dən başlayaraq 44 gün davam edən Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu böyük şücaət və yüksək döyüş hazırlığı keçdiyini göstərdi.

Nəticədə torpaqlarımız işğaldan azad olundu. Tarix yazan Sərkərdəmiz başda olmaqla, 44 gün ərzində əsgər və zabitlərimiz Azərbaycanın haqq uğrunda mübarizə aparmaq əzmini, əsl döyüş ruhunu bütün dünyaya nümayiş etdirdi.

Yenilməz Milli Ordumuzla xalqımızın birliyi sayəsində Ermənistanın işğalı altında qalan ərazilərimizin azad edilməsi şanlı tarixə çevrildi. Müharibənin hər günü salnaməçilər tərəfindən qələmə alınaraq xronologiya şəklində kitablarda əbədiləşdirilməkdədir.

Belə nəşrlərdən biri də "Qalib Sərkərdə" publisistik kitabıdır. Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin fəallarından olan Aygül Bağırovanın (Qırğızıstanda fəaliyyət göstərən Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun nəşr etdirdiyi) "Qalib Sərkərdə" kitabı eyni zamanda Müzəffər Ali Baş Komandan İlham Əliyevin 60 illik yubileyinə həsr edilib. Bişkekdə çapdan buraxılan yeni nəşr oxucunu döyüşlərin qızğın getdiyi günlərə qaytarmaqla, bir daha düşmənin çirkin siyasətinə nifrəti gücləndirir.

Şəhid və qazilərimizin şərəfli döyüş yollarından söz açan müəllif qeyd edir ki, qazandığımız qələbə Prezident İlham Əliyevin siyasi hakimiyyətə gəlişindən ötən 18 il ərzində formalaşdırdığı və nail olduğu xalq-hakimiyyət-ordu birliyinin vəhdəti - "Dəmir yumruğ"un hesabınadır.

Müəllif əmindir ki, "Qalib Sərkərdə"nin qəhrəmanı - Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin döyüşlərin getdiyi hər günün sonunda xalqa verdiyi müjdə ilə gələcək nəsillər də illər boyu deyəcəklər: "Qarabağ Azərbaycandır!"

***M.NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# ADA-nın "Capstone" adlı elmi-praktiki tədqiqat layihəsi çərçivəsində MEDİA-da görüş keçirilib

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ADA Universiteti ilə birgə əməkdaşlığı çərçivəsində magistr və bakalavr dərəcələri üzrə yuxarı kurs tələbələri üçün təşkil edilən "Capstone" adlı elmi-praktiki tədqiqat layihəsi çərçivəsində Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov ilə tələbələr arasında görüş keçirilib.

Agentlikdən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı tələbələrlə elmi və praktiki tədqiqat mövzusu təyin edilib və bu istiqamətdə müzakirələr aparılıb.

Qeyd edək ki, "Capstone" adlı elmi-praktiki tədqiqat layihəsi həm bakalavr, həm də magistr tələbələri üçün nəzərdə tutulmuş yekun buraxılış işidir. Bu tədqiqat layihəsi 1 semestr, yəni, 4 ay müddətində davam edəcək. Tələbələrlə əvvəlcədən təyin edilmiş cədvəl üzrə Medianın İnkişafı Agentliyində mütəmadi görüşlər keçiriləcək.

Yekunda tələbələr tədqiq etdikləri mövzu üzrə buraxılış yazı işini hazırlayıb onun təqdimatını keçirəcəklər.

XXVIII Dünya Çempionatı

# Akrobatlarımızın tarixi uğuru

## Böyüklər səviyyəsində ilk mundiallarına qatılan idmançılarımızın hədəfi qızıl medaldır





*Əvvəli 1-ci səh.*

Mükafatlandırma mərasimindən sonra akrobatlarımız əldə etdikləri nəticənin təəssüratlarını bölüşüblər. Murad Rəfiyev qeyd edib ki, yarışların ikinci günündə əldə olunan mükafat öz-özlüyündə sevindiricidir. "Biz kifayət qədər yaxşı çıxış etdik, əvvəlcədən medal qazanmağı planlaşdırırdıq və hətta finalda bir müddət lider idik. Amma nə isə çatışmadı, daha doğrusu, bizim proqramımızın mürəkkəbliyi müvafiq olaraq qızıl və gümüş medallar qazanan amerikalılardan və qazaxlardan bir qədər aşağı idi. Lakin çempionat hələ bitməyib və cari nəticəni yaxşılaşdırmaq üçün iki günümüz var", - deyə Murad vurğulayıb.

D. Abbasov isə çempionata kifayət qədər uzun müddət hazırlaşdıqlarını bildirib: "Bu, böyüklər səviyyəsində ilk mundialımız idi və biz ona xüsusi bir şəkildə köklənirdik. Bəli, bürünc fəthindən başlamışıq, amma digər iki finalda gümüş və qızıl uğrunda mübarizə aparmaq üçün şansımız olacaq. Qarşıda bizi temp və balans hərəkətləri üzrə çıxışlar gözləyir və əlbəttə ki, öz şanslarımızdan yararlanmağa ümid edirik. Biz qalan müddət üçün proqramı çətinləşdirməyə çalışacağıq".

Qeyd etmək lazımdır ki, son anadək duetimiz turnir protokolunda ikinci olub, amma sonuncu çıxış edən amerikalı akrobatlar turnirin sahiblərini üçüncü yerə sıxışdıraraq, fəxri kürsünün ən yüksək pilləsinə yüksəliblər.

Bu, Azərbaycanın akrobatika gimnastikası tarixində dünya çempionatında qazanılan ilk medaldır. Günün birinci hissəsində həmçinin komanda hesabında qaliblər, eləcə də qarışıq cütlüklər və kişi qrupları üzrə temp hərəkətləri, qadın qrupları arasında balans hərəkətləri proqramları üzrə finalçılar müəyyənləşib.

Komanda hesabı üzrə yarışlarda üç kateqoriya üzrə ən çox - 51 xal yığan Belçika çempionatın qızıl medalına sahib olub. Portuqaliya gimnastları 48 xalla gümüş medal qazanıblar. İlk üçlüyü 46 xalla Böyük Britaniya komandası tamamlayıb.

Temp hərəkətləri üzrə təsnifat mərhələsində ölkəmizi təmsil edən Ağasif Rəhimov və Raziyə Seyidli cütlüyü 29.090 xalla ikinci pillədə yer alaraq finala yüksəlib.

Bu proqramda çıxış edən Sabir Ağayev və Mehriban Salamovadan ibarət digər cütlüyümüz 26.340 xalla doqquzuncu olub.

Ağasif Rəhimov və Raziyə Seyidlidən ibarət qarışıq cütlüyümüz, eləcə də Daniel Abbasov və Murad Rəfiyevdən ibarət kişi cütlüyümüz martın 13-də balans hərəkətlərində çıxışlarını nümayiş etdirəcəklər.

Ağasif Rəhimov və Raziyə Seyidlidən ibarət cütlüyümüz Bakıda keçirilən akrobatika gimnastikası üzrə 28-ci dünya çempionatında qarışıq hərəkətdə beşinci olub. Akrobatlarımızın çıxışı 28.670 xalla qiymətləndirilib. Fəxri kürsünün ən yüksək pilləsində 29.110 xalla Belçika cütlüyü yer alıb. Böyük Britaniya komandası 29.030 xalla gümüş, almaniyalı gimnastlar isə 28.890 xalla bürünc medala sahib olublar.









Bu, Belçika millisinin dünya çempionatında qazandığı üçüncü qızıl medaldır. Bundan əvvəl belçikalı gimnastlar komanda hesabında və qadın qrupların qarışıq hərəkətində də birinci pillədə yer alıblar.

Son olaraq kişi qrupların qarışıq hərəkətdə qalibləri müəyyənləşib. Böyük Britaniya qrupu 29.410 xalla dünya çempionu adını qazanıb. Belçika komandası 29,160 xalla çempionatı ikinci, İsrail qrupu isə 28.430 xalla üçüncü pillədə başa vurublar.

Dünən Milli Gimnastika Arenasında keçirilən yarışların üçüncü günündə 5 final təşkil olunub və idmançılarımız bunlardan ikisində iştirak ediblər. Daniel Abbasov və Murad Rəfiyevdən ibarət kişi cütlüyümüz 28-ci dünya çempionatında daha bir medala sahib çıxıblar. İdmançılarımız temp hərəkətlərinin icrasında hakimlərdən 27.500 xal alaraq bürünc medal əldə ediblər. Birinci və ikinci yerləri müvafiq olaraq ABŞ və Qazaxıstan təmsilçiləri öz aralarında bölüşdürüblər.

Bundan sonra qadın qrupların balans hərəkətində qaliblər müəyyənləşib. ABŞ təmsilçiləri 28.710 xalla bütün rəqiblərini qabaqlayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Belçika gimnastları 28.140 xalla çempionatı ikinci, Avstriya idmançıları (26.910 xal) üçüncü pillədə başa vurublar.

Avropa çempionatının gümüş və bürünc mükafatçıları Ağasif Rəhimov və Raziyə Seyidli temp hərəkətləri proqramında hakimlərdən 28.640 xal alaraq gümüş medala layiq görülüblər. Belçikalılar 29.280 xalla birinci, Böyük Britaniya təmsilçiləri isə 28.440 xalla üçüncü pillədə qərarlaşıblar.

Qeyd edək ki, bu medal Azərbaycanın akrobatika gimnastikası tarixində dünya çempionatında qazanılan ilk gümüş medaldır.

Bununla da dünya çempionatında təmsilçilərimizin qazandıqları medalların sayı 3-ə çatıb.

Çempionatda 17 ölkədən 170 gimnast iştirak edir.

Martın 13-dək davam edəcək yarışda idmançılar qadın, kişi və qarışıq cütlükləri, eləcə də qadın və kişi qrupları proqramlarında balans, temp və qarışıq hərəkətlər üzrə çıxış edəcəklər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Koronavirus insan psixologiyasına da təsir edir

## Bu xəstəlik daha çox gənclər arasında depressiya hallarını artırır

*Əvvəli 1-ci səh.*

Pandemiyanın əvvəllərində insanlarda bu xəstəliklə bağlı qorxu var idi. Yeni növ koronavirusla əlaqədar dövlətlərin virusun yayılmasının qarşısını almaq üçün həyata keçirdiyi qabaqlayıcı tədbirlər, karantin rejiminin tətbiq edilməsi, iş yerlərinin bağlanması, sosial izolyasiya, bunun nəticəsində tənhalıq insan psixologiyasına təsirsiz ötüşməyə bilməzdi.

### Narahatlıq və gərginlik yaranmışdı

Mütəxəssislər pandemiyanın əvvəlindən insanların infeksiyaya yoluxmamaq, həmçinin tətbiq olunan qaydalar çərçivəsində sosial həyatdan uzaqlaşmaları ilə narahatlıq və gərginlik keçirdiklərini, depressiya hallarının artdığını bildirirdilər.

Əvvəllər əksər insanların virusla bağlı şübhəsi var idi və xəstəliyin ağırlığına inanmırdılar. Lakin infeksiyanın yayılması nəticəsində hər kəsin ətrafında ölüm halları artdıqca insanların xəstəliyə münasibəti dəyişdi və bununla da onlarda qorxu hissi baş qaldırdı. Qısa müddətdə bitəcəyi gözlənilən xəstəliyin daha geniş yayılması, getdikcə ağır hal alması, ölüm hallarının artması isə insanların psixologiyasını alt-üst etdi. COVID-19-a yoluxduğu halda qorxu, həyəcan keçirən şəxslərin xəstəliyi daha ağır keçirdikləri, bəzən onların həyəcan və qorxudan ürəklərinin dayandığı ilə bağlı məlumatlar da yayıldı.

Zaman keçdikcə insanlar pandemiya ilə bağlı karantin rejiminə, həyat tərzinə alışsa da, depressiya halları, narahatlıq, həyəcan, gərginlik hissləri davam etdi. Xüsusən, həssas qrupa aid olan şəxslərdə - yaşlılar, qayğıya ehtiyacı olan, sağlamlıqla bağlı problemlər yaşayan insanlarda belə hallar daha çox müşahidə olundu.

### Gənclər arasında depressiya, təşviş kimi hallar iki dəfə artdı

COVID-19 pandemiyası səbəbindən əhval, travma sonrası stres pozuntuları, depressiya, panik atak kimi psixi pozuntular daha çox müşahidə olundu. Araşdırmalar karantin dövrünün daha əvvəl mövcud olmuş ruhi xəstəliklərin gedişinə də mənfi təsir göstərə bildiyini göstərdi.

Tədqiqatlara görə, xüsusilə, 18-30 yaş qrupunda olan gənclər arasında pandemiyanın təsiri ilə ağır depressiya, uyğunlaşma pozuntusu, özünə zərərvermə və maddə istifadəsi kimi təsirlərdə ciddi artım müşahidə olundu.

Kaliforniya Universitetində aparılan bir araşdırmada gənclərin pandemiyadan daha çox təsirləndiyi ortaya çıxdı. Pandemiyadan əvvəl və pandemiya zamanı universitet tələbələri arasında aparılmış araşdırmanın nəticələrinə görə, gənc əhali arasında depressiya nisbətinin 32 faizdən 61 faizə yüksəldiyi məlum oldu.

Əksər ölkələrdə mütəxəssislər tərəfindən aparılmış araşdırmalarda pandemiyanın gənclərin psixologiyasina ən çox təsir göstərdiyi ortaya çıxdı. Psixoterapevtlər pandemiya dövründə müraciət edənlərin sayının artdığını qeyd edirdilər. Gənclər arasında depressiya, təşviş kimi halların iki dəfə artdığı bildirilir. Buna görə gənclər pandemiyadan ən çox təsirlənən qrup sırasındadırlar.

### Vaksinlərdən sonra psixoloji təsir azalıb

Psixi Sağlamlıq Mərkəzinin müalicə-konsultativ şöbəsinin müdiri Səbinə Rəşidova qəzetimizə açıqlamasında bildirib ki, COVID-19 infeksiyasının pandemiya şəklində yayıldığı ilk dövrdən indiyə kimi insan psixikasına mənfi təsiri mövcuddur.

İnsanlar pandemiya başlayanda bu infeksiyanı daha sərt şəkildə qəbul edir, həddən artıq həyəcan, qorxu keçirir, təşvişli olurdularsa, hazırda bu psixoloji təsirlər xeyli azalıb. Xəstəlik haqqında maarifləndirmənin getdikcə artması, gigiyenik qaydalara daha çox riayət edilməsi, mübarizə tədbirlərinin aparılması, virus əleyhinə vaksinasiyanın sürətli şəkildə həyata keçirilməsi yavaş-yavaş xəstəliyin daha adi, rahat qəbul olunmasına şərait yaratdı. Şöbə müdiri qeyd edir ki, pandemiya insanların psixologiyasına müxtəlif şəkildə mənfi təsirlər göstərdi:

"Elə qrup insanlar oldu ki, onlarda qorxu, təşviş pozuntuları yarandı, bəzilərində isə xəstəliyə yoluxub sağaldıqdan sonra müəyyən depressiyalar müşahidə olundu. Bundan başqa, pandemiya əvvəl hansısa psixoloji pozuntulardan əziyyət çəkən şəxslərin xəstəliklərinin kəskinləşməsinə də şərait yaratdı".

### Ən çox rast gələnən problemlər

Səbinə Rəşidova deyir ki, bəzi şəxslər COVID-19 infeksiyası ilə bağlı deyil, pandemiya nəticəsində evə qapanmadan, işsizlikdən, fəaliyyətinin məhdudlaşmasından dolayı müəyyən psixoloji pozuntulardan əziyyət çəkiblər. Virusun insanlarda yaratdığı qorxu, həyəcan, təşviş, gərginlik, ümumi narahatlıq xəstəliyin pandemiya şəklində dünyada yayılması və ölümlə nəticələnə bilməsinin mümkünlüyü ilə bağlı idi. Ümumiyyətlə, pandemiya müxtəlif yaş qrupundakı insanlara fərqli formada təsir edir.

Həkim vurğulayır ki, COVID-19 pandemiyası başladığı dövrdə psixoloqa müraciət edənlərin sayı hazırkı vaxt ilə müqayisədə çox olub. Müraciət edənlərin müalicəsi psixoterapiya seansları, lazım gələrsə medikamentoz müalicə şəklində aparılır. Pandemiya ilə bağlı ən çox görünən psixoloji problemlər - təşviş, adaptasiya, obsessiv kompulsif pozuntular, postdramatik stres, eyni zamanda müxtəlif depressiyalar olub.

Pandemiyanın insanların psixologiyasına təsirinə gəldikdə isə öldürməyən stres insanı daha güclü edir. Yəni, cəmiyyət gələcəkdə yarana biləcək oxşar hadisələrə daha hazırlıqlı olur.

### Son vəziyyət

SARS-CoV-2-nin "Omikron" variantının aşkarlanmasından sonra virusa yoluxma halları artsa da, bu ştamın o qədər öldürücü olmadığı, infeksiyaya yoluxanların əksəriyyətinin xəstəliyi yüngül keçirdiyi bildirildi. Azərbaycanda da "Omikron" variantı aşkarlandıqdan sonra xəstəliyə yoluxma halları artmağa başlasa da, həkimlər xəstəxanalara yatışların və ölüm hallarının artmadığını qeyd etdilər.

ÜST-ün son məlumatına görə, COVID-19-un yeni ştamı da ortaya çıxıb. Yeni variant "Deltakron" artıq Avropanın bir sıra ölkələrində qeydə alınıb, lakin bu ştamın yoluxma faizi aşağıdır.

Məlumata əsasən, "Deltakron" "Delta" və "Omikron" alt növlərinin birləşməsindən yaranıb. İnfeksiyanın aşağı səviyyədə olduğu bildirilir. Azərbaycan səhiyyə qurumlarının təmsilçiləri tərəfindən karantin qaydalarının yumşaldılmasından sonra ölkədə epidemioloji vəziyyətin nəzarət altında olduğu deyilir.







***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5685
Sifariş 694
Qiymәti 40 qəpik